Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 110 (7837) CÜMƏ AXŞAMI, 17 may 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik

# Naxçıvan Muxtar Respublikası uğurla, sürətlə inkişaf edir

*Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri*

## Naxçıvan Beynəlxalq Hava Limanında qarşılanma

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfərə gəlib.



AZƏRTAC xəbər verir ki, Naxçıvan Beynəlxalq Hava Limanında dövlət başçısını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov qarşıladı.

Hava limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlət başçısı Naxçıvan Muxtar Respublikası hökumətinin üzvləri ilə görüşdü.

## Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət

Mayın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

AZƏRTAC xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlət başçısına abidənin ətrafında aparılan abadlıq və yenidənqurma tədbirləri barədə məlumat verdi.



## "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin birinci mərhələsinin açılışı olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin birinci mərhələsinin açılışında iştirak edib.





AZƏRTAC xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlət başçısına layihə ilə bağlı görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, layihə üzrə tikinti işlərinin icrasına 2012-ci ildən başlanılıb. Layihəyə əsasən, Şərur şəhərinə, Mahmudkənd kəndinə və Zeyvə kəndinin bir hissəsinə su şəbəkəsi, Şərur şəhərinə kanalizasiya şəbəkəsi çəkilib və ev birləşmələri aparılıb. Layihənin birinci mərhələsi ötən ilin dekabrında başa çatıb. Layihəyə əsasən, Arpaçay subölücüsündə gölün dibindən 6 metr dərinlikdə qalereya tikilib. Qalereyanın su sərfi saniyədə 1150 litr təşkil edir. Buradan su anbarlarına qədər diametri 900 millimetr olan plastik boru ilə 1500 metr xətt çəkilib. Xətt üzərində bir ədəd suboşaldıcı inşa olunub. Qalereyadan gələn su dezinfeksiya olunaraq su anbarlarına yığılır və öz axını ilə əhaliyə fasiləsiz ötürülür. Layihə çərçivəsində hər birinin tutumu 10 min kubmetr olan iki ədəd və tutumu 7 min 500 kubmetr olan bir ədəd, cəmi tutumu 27 min 500 kubmetr olan su anbarları tikilib. Su anbarlarından Şərur şəhərinədək 9,5 kilometr uzunluğunda xəttin tikintisi aparılıb.

Layihə ərazisində diametri 560 millimetrdən 63 millimetrə qədər plastik borularla 59,4 kilometr içməli su xətti çəkilib, 2500 ev su şəbəkəsinə qoşularaq sayğac quraşdırılıb. Su şəbəkəsi üzərində 7 yanğın hidrantı tikilib. Yerin relyefindən asılı olaraq mənzillərə su 2-5 bar arasında təzyiqlə verilir. Şərur şəhərində diametri 400 millimetrdən 200 millimetrə qədər olan borularla 19 kilometrdən çox daxili kanalizasiya şəbəkəsi çəkilib və 1500 ədəd ev kanalizasiya xəttinə qoşulub. Kanalizasiya sularının kənarlaşdırılması üçün diametri 400 millimetrdən 600 millimetrə qədər plastik borularla 7,3 kilometr uzunluğunda ana xəttin inşası aparılıb.

Bununla da Şərur şəhərində, Mahmudkənd kəndində və Zeyvə kəndinin bir hissəsində 13 min 500 nəfər Dünya Səhiyyə Təşkilatının standartlarına cavab verən içməli su ilə davamlı olaraq 24 saat təmin ediləcək.

Ardı 2-ci səh.

## Bakı indi də dünyanın aparıcı liman şəhərləri sırasındadır

Deyirlər, dünyanın ən gözəl şəhərləri sahildə yerləşənlərdir. Sahil yoxdursa, sanki şəhərin gözəlliyi də yox kimidir. Bu baxımdan Bakı dünyanın bəxti gətirən şəhərlərindəndir. Paytaxtımızın formalaşmasında, bugünkü simasının cilalanıb mükəmməlləşməsində onun dəniz sahilində yerləşməsinin rolu danılmazdır. Elə İçərişəhərin sağ tərəfindəki bağ da sahilə yan alan ticarət gəmilərindən rüsum kimi məcburi qaydada gətirilməsi tələb olunan münbit torpağın və ağacların hesabına ərsəyə gəlib.



Neft fəvvarə vurduqdan sonra Bakı həm də liman şəhəri kimi inkişaf etməyə başladı. Güclənən ticarət əlaqələri sahilə yan alan gəmilərin sayını artırdı. Şübhəsiz ki, Bakı limanı olmasaydı, şəhərimiz hələ o vaxtlar dənizboyu yox, tamamilə fərqli istiqamətdə, fərqli tərzdə inkişaf edərdi. Bu baxımdan bir neçə gün əvvəl paytaxtımızda keçirilmiş Dünya Limanlar Konfransı da (IAPH Baku 2018) şəhərimizin iqtisadi imkanlarını təsdiq edən, ona yeni iqtisadi məzmun verən unikal hadisə hesab olunmalıdır.

Tədbirdə çıxış edən Beynəlxalq Limanlar Assosiasiyasının prezidenti Santiaqo Qarsiya Mila da konfransın qədim İpək yolunun mərkəzində yerləşən Bakıda keçirilməsini təsadüfdən daha çox zərurətlər və reallıqlarla bağlı olduğunu etiraf etdi. "DP World" şirkətlər qrupunun sədri və icraçı direktoru Sultan Əhməd bin Sulaim isə Azərbaycanın logistika sahəsində atdığı vacib addımların, icra edilən beynəlxalq layihələrlə bağlı tədbirin məhz Bakıda keçirilməsini şərtləndirdiyini bildirdi.

Həqiqətən, Ələt qəsəbəsindəki Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Azərbaycanda nəqliyyatın təhlükəsizliyi məsələlərini uğurla həll etməyə, Bakının Xəzər hövzəsində çox müasir və böyük nəqliyyat-logistika mərkəzinin yaradılmasına, Xəzəryanı ölkələr arasındakı əməkdaşlığın genişlənməsinə, "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin tam gücü ilə işləməsinə əlverişli şərait yaradır.

Ardı 10-cu səh.

## Gəlirli olduğu üçün barama və tütünçülüyə maraq artıb

Artıq üçüncü ildir ki, Qazaxda barama yetişdirilir və bu sahədə yüksək məhsuldarlıq əldə edilir. Qısa vaxt ərzində çəkdikləri zəhmətin bəhrəsini görən rayon sakinləri baramaçılığın sirlərini daha dərindən öyrənir, daha çox qazanc əldə etməyə çalışırlar.





Baramaçılığın inkişafı istiqamətində dövlət dəstəyini hər an hiss edən kümçülər keyfiyyətli və bol barama istehsalı üçün yorulmadan çalışır, həm bu sahədə qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsinə nail olur, həm də ailələrinin dolanışığının bir qismini təmin edirlər.

Artıq dövlətin dəstəyi ilə xaricdən gətirilmiş baramaqurdlarının kümçülərə paylanması başa çatmışdır. Birinci və İkinci Şıxlı, Yuxarı Salahlı, Kəmərli, Qaymaqlı, Aslanbəyli, Aşağı Salahlı, Orta Salahlı, Qazaxbəyli, Daş Salahlı, Kosalar, Hüseynbəyli, Canalı, Çaylı, Ürkməzli, Alpout, Xanlıqlar, Ağköynək, Cəfərli və s. kəndlərdə, eləcə də Qazax şəhərində 100-dən artıq sakin bu işə qol qoymuşdur. Kümçülərə 130 qutu baramaqurdu paylanmışdır.

Rayon kənd təsərrüfatı İdarəsinin rəisi Həmid Pənahov dedi ki, bu il rayonda ötən illə müqayisədə xeyli çox ipəkqurdu bəslənilir. Kümçülər sağlam inkişafı üçün baramaqurdlarını nəzarətsiz buraxmır, onlara lazımi qulluq göstərirlər. İpəkqurdu bəslənən yerlər tez-tez təmizlənir, tut yarpaqları ilə təmin edilirlər.

Ardı 10-cu səh.

# Naxçıvan Muxtar Respublikası uğurla, sürətlə inkişaf edir

## “Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsinin birinci mərhələsinin açılışı olub

*Əvvəli 1-ci səh.*





Sonra dövlət başçısı “Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsinin birinci mərhələsinin açılışını bildirən düyməni basdı.

Sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən Prezident **İlham ƏLİYEV** dedi:

- Bu gözəl hadisə münasibətilə sizi təbrik edirəm. Şərur şəhərinin içməli su problemi öz həllini tapıbdır. Gözəl, əlamətdar hadisədir. Mənə verilən məlumata görə, bir neçə kənd də indi içməli su ilə təmin olunur. Bu, çox vacib sosial layihədir. Naxçıvanın hər bir şəhərində içməli su-kanalizasiya layihələri icra edilir. Artıq Şərur Naxçıvan, Culfa, Şahbuz şəhərlərindən sonra dördüncü şəhərdir ki, bu məsələ öz həllini tam tapıbdır.

Siz yaxşı bilirsiniz ki, əvvəlki dövrlərdə içməli su məsələsi həmişə çox ciddi problem kimi insanları narahat edirdi. Ancaq bu gün Şərur şəhərinə tam təmiz, Dünya Səhiyyə Təşkilatının standartlarına tam uyğun içməli su verilibdir. Digər şəhərlərdə layihələr icra edilir və icra ediləcək. Yaxın gələcəkdə Naxçıvanın bütün şəhərlərinin içməli su-kanalizasiya layihələri tam başa çatacaq. Bu, ölkəmizin gücünü, qüdrətini, bizim sosial siyasətimizi göstərir. Həmişə demişəm, bu gün də demək istəyirəm ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Onun problemlərinin, qayğılarının, bütün sosial məsələlərin həlli üçün bizdə çox güclü iradə, imkanlar var və görülən işlər bizim siyasətimizi əks etdirir.

Naxçıvan Muxtar Respublikasında sosial sahənin inkişafı üçün çox böyük işlər görülübdür, xəstəxanalar, məktəblər tikilibdir, içməli su və digər infrastruktur layihələri icra edilir. Əlbəttə ki, bu məsələlər insanların rahat yaşaması üçün əsas şərtdir. İçməli su insan sağlamlığı üçün əsas məsələdir və biz bu məsələni ölkə üzrə hər bir yerdə həll edirik. Azərbaycanın hər bir yerində içməli su-kanalizasiya layihələri icra edilir və qarşıya vəzifə qoyulubdur ki, bütün şəhərlərin su şəbəkəsi, kanalizasiya xətləri yenidən qurulsun. İşlərin böyük əksəriyyəti demək olar ki, öz həllini tapıbdır. O cümlədən Naxçıvan Muxtar Respublikasında da bu işlərə böyük diqqət göstərilir və beləliklə, bu önəmli sosial məsələ öz həllini tapmış olur.

Sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri **Vasif TALIBOV** dedi:

- Möhtərəm Prezident, rayon ictimaiyyəti adından Sizə minnətdarlığımızı bildiririk ki, bu cür əhəmiyyətli məsələyə diqqət yetirirsiniz. Artıq muxtar respublika əhalisinin demək olar ki, 50 faizdən çoxu Dünya Səhiyyə Təşkilatının normalarından da yüksəksəviyyəli su alır. Sağ olun.

Prezident **İlham ƏLİYEV:** Çox gözəl.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

# Naxçıvan Müəllimlər İnstitutunun yeni binası istifadəyə verilib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan Müəllimlər İnstitutunun yeni binasının açılışında iştirak edib.





AZƏRTAC xəbər verir ki, dövlət başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Azərbaycanda ali təhsilin inkişafı da diqqətdə saxlanılır. Prezident İlham Əliyev ali təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirir. Ölkədə mövcud olan ali məktəblərin sırası genişləndirilir. Bu sırada Naxçıvan Müəllimlər İnstitutu da mühüm yer tutur. Belə ki, 2003-cü il avqustun 26-da Naxçıvan Müəllimlər İnstitutu kimi fəaliyyətə başlayan bu təhsil ocağı ötən dövrdə öz fəaliyyətini genişləndirib, ali təhsilli kadrların hazırlanması sahəsində bir sıra nailiyyətlər əldə edib. Ötən dövrdə institut ixtisaslı müəllim kadrları ilə də təmin olunub, lazımi tədris şəraiti yaradılıb, maddi-texniki baza gücləndirilib, yeni ixtisaslar açılıb. Bütün bunlar Azərbaycan ali təhsilinin yeni inkişaf mərhələsinin göstəriciləridir. Dövlət başçısının Azərbaycanın ali təhsil müəssisələrinin dünyanın inkişaf etmiş ali təhsil məkanına inteqrasiyasının təmin olunması ilə bağlı tədbirləri bu sahədə yeni keyfiyyət dəyişikliyinin əldə olunmasına şərait yaradıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlət başçısına məlumat verdi ki, altı mərtəbədən ibarət olan bu ali təhsil ocağında ümumilikdə 23 auditoriya var. Binada 4 kompüter otağı, 16 elektron lövhəli auditoriya, kitabxana və oxu, eləcə də elektron oxu zalları, rəngkarlıq və heykəltəraşlıq emalatxanaları var. Təsviri incəsənət, coğrafiya, musiqi, hərbi, tibb, Azərbaycan dili, ali riyaziyyat və informatika otaqları tələbələrin biliklərinin artırılması üçün bütün zəruri inventarla təchiz edilib. Binada psixologiya laboratoriyası, müəllim və tələbələr üçün bufet də yaradılıb. Tələbələrin ixtiyarına verilən idman zalında müasir qurğular quraşdırılıb. Binada 132 və 20 yerlik iclas zalları da var. Bu zallarda təhsil müəssisəsinin həyatında baş verən əlamətdar hadisələrlə bağlı müxtəlif tədbirlər keçirmək mümkündür.

Naxçıvan Müəllimlər İnstitutunun yeni binasında yaradılan şərait bir daha sübut edir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsil sahəsinin inkişafı istiqamətində atılan addımların nəticəsində muxtar respublikada da böyük işlər görülüb. Bütün bunlar Azərbaycanda insan kapitalının inkişafı istiqamətində dövlətimizin həyata keçirdiyi siyasətin məntiqi nəticəsidir.

Bina ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Naxçıvan ictimaiyyətinin nümayəndələri ilə görüşdü.

Dövlət başçısı görüşdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

- İlk növbədə, sizi Müəllimlər İnstitutunun yeni binasının açılışı münasibətilə təbrik etmək istəyirəm. Gözəl binadır, çox gözəl şərait yaradılıb. Memarlıq baxımından da Naxçıvan şəhərini daha da gözəlləşdirir. Bu binanın tikilməsi onu göstərir ki, Naxçıvan uğurla, sürətlə inkişaf edir. Son illər ərzində muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır. Son 15 il ərzində respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıbdır. Bu, məncə, dünya miqyasında rekord göstəricidir. Bütün uğurlar münasibətilə Naxçıvan Muxtar Respublikasının rəhbərliyini, bütün sakinlərini ürəkdən təbrik etmək istəyirəm.

Naxçıvan şəhəri, bütün şəhərlər abadlaşır, gözəlləşir, çox böyük quruculuq, yaşıllaşdırma işləri aparılır. Yol boyunca vaxtilə əkilmiş ağaclar indi böyüyüb, çox gözəl mənzərə yaradır. Binalar təmir olunur, yeni gözəl binalar tikilir. Bir sözlə, Naxçıvanın uğurlu inkişafı hər bir Azərbaycan vətəndaşının istəyinə bağlı olan məsələdir. Çünki Naxçıvan bizim tarixi diyarımızdır, qədim Azərbaycan torpağıdır, tarixi yerdir. Burada yerləşən tarixi abidələr Azərbaycan xalqının istedadını göstərir. Onu göstərir ki, Azərbaycan xalqı əsrlər boyu bu diyarda yaşayıb-yaratmışdır.

Naxçıvan strateji yerdə yerləşir, ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynayır. Naxçıvanın uğurlu inkişafı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər sovet dövründə də daim Naxçıvana böyük diqqət göstərmişdir və o vaxt respublikanın inkişafı üçün çox böyük işlər görülmüşdür. 1990-cı illərin əvvəllərində - Naxçıvan üçün ən ağır illərdə ulu öndər naxçıvanlılarla birlikdə burada çox ağır şəraitdə Naxçıvanı böyük bəlalardan qurtara bilmişdir. Biz hamımız o illəri yaxşı xatırlayırıq, bilirik ki, bizim mənfur düşmənlərimizin niyyəti, eyni zamanda, Naxçıvanı da işğal etməkdən ibarət idi. Naxçıvana qarşı onlar silahlı hücumlar təşkil edirdilər. Ancaq naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşərək düşmənə layiqli cavab verib onları yerinə oturtmuşlar.

O illərdə Naxçıvan üçün və ümumiyyətlə, Azərbaycan üçün həlledici məsələlər öz həllini tapmışdır. Ulu öndərin rəhbərliyi ilə Naxçıvan o ağır illərdən şərəflə çıxa bilmişdir. Ölkəmizin müstəqilliyi işində Naxçıvanın çox böyük rolu olmuşdur. Məhz o illərdə ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını Naxçıvanda rəsmi bayraq kimi təsdiq etdi və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırılmışdı ki, bu bayraq dövlət bayrağı kimi qəbul edilsin. Ancaq o vaxt Azərbaycan rəhbərliyi buna imkan vermədi.

O vaxt Naxçıvan “Naxçıvan Muxtar Sovet Sosialist Respublikası” adlanırdı və ulu öndərin təklifi ilə bu addan sovet, sosialist sözləri çıxarıldı. Bu, sovet dövründə baş vermişdir. Sovet İttifaqının saxlanmasına dair referendum Naxçıvanda keçirilmədi. Bütün bu işlər böyük cəsarət tələb edirdi. Bütün bu işlər onu göstərirdi ki, ulu öndər həmişə müstəqillik arzuları ilə yaşayırdı. Azərbaycanın dövlət müstəqilliyinin təmin edilməsində ulu öndərin və naxçıvanlıların çox böyük rolu vardır.

Ondan sonrakı dövrdə də ulu öndər Azərbaycan Prezidenti kimi həmişə Naxçıvana diqqət, qayğı göstərirdi. Naxçıvana tez-tez səfərlər edirdi. Bu yaxınlarda ulu öndərin 95 illiyinə həsr edilmiş təntənəli mərasimdə çıxış edərkən, o cümlədən onun Naxçıvan dövrü haqqında söz açmışdım. Bildirmişdim ki, Heydər Əliyev siyasəti bu gün də Azərbaycanda yaşayır, davam edir, əbədi yaşamalıdır və yaşayacaqdır.

Biz bu siyasətin gözəl nəticələrini ölkəmizin hər bir yerində görürük, o cümlədən Naxçıvan Muxtar Respublikasında. Bir daha demək istəyirəm ki, burada aparılan işlər çox yüksək qiymətə layiqdir, çox böyük zəhmət, çox böyük məhəbbət tələb edir. Görürəm ki, bütün işlər böyük məhəbbətlə, böyük zövqlə görülür ki, insanlar üçün yaxşı şərait yaradılsın, Naxçıvan Muxtar Respublikası bundan sonra da uğurla inkişaf etsin.

Mən də ulu öndərin siyasi xəttinə sadiq qalaraq bütün sahələrdə, o cümlədən Naxçıvana qayğı, diqqət məsələlərində o yolu davam etdirirəm. Bu səfər mənim Prezident kimi Naxçıvana sayca 14-cü səfərimdir. Prezident kimi ilk dəfə Naxçıvana düz 14 il bundan əvvəl - 2004-cü ilin may ayında gəlmişdim. Bu 14 il ərzində Naxçıvanda gedən işləri daim diqqətdə saxlamışam və respublikanın uğurlu inkişafı üçün nə lazımdırsa biz onu da edirik.

İlk növbədə, Naxçıvanın təhlükəsizliyi məsələləri ilə bağlı çox böyük işlər görülüb. Siz burada düşmənlə üz-üzə yaşayırsınız, yaradırsınız. Əlbəttə ki, ilk növbədə, Naxçıvan Muxtar Respublikasının uğurlu inkişafı üçün təhlükəsizlik tədbirləri ön planda və prioritet məsələ olmalıdır. Biz bunu belə də qəbul edirik. Naxçıvanın hərbi potensialının gücləndirilməsində böyük işlər görülüb. Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi olan Naxçıvan Ordusu ən müasir silahlar, texnika ilə təchiz edilmişdir. Biz son illər ərzində Azərbaycan Ordusunu böyük dərəcədə gücləndirə bilmişik. Alınan müasir texnikanın demək olar ki, bütün növləri, yaxud da ki, əksər növləri Naxçıvana göndərilir. Naxçıvanın coğrafi yerləşməsinə, relyefinə uyğun şəkildə bütün müasir texnikalar göndərilir. Bu gün Naxçıvan Ordusu böyük qüvvəyə malikdir və düşmənin istənilən təxribatının qarşısını ala bilər və eyni zamanda, uğurlu əks-hücum əməliyyatı keçirə bilər. Naxçıvanda yerləşdirilmiş müasir silahlar, o cümlədən uzaqmənzilli raketlər düşmənin istənilən hərbi hədəfini məhv edə bilər. Yəni, təhlükəsizlik məsələləri tam təmin olunub. Bu məsələ daim diqqət mərkəzindədir.

Əlbəttə, bu, imkan verir ki, Naxçıvan uğurla, sürətlə inkişaf etsin. Burada böyük infrastruktur layihələri icra edilibdir. On ildən çoxdur ki, Naxçıvan Muxtar Respublikasının qazlaşdırılması ilə bağlı məsələlər öz həllini tapıb. Qazlaşdırma 100 faiz təmin edilibdir. Biz hələ Azərbaycanın ümumi qazlaşdırılmasını təqribən 93-94 faiz səviyyəsində təmin edə bilmişik, bu ilin sonuna qədər 95 faizə çatacaq. Ancaq Naxçıvan Muxtar Respublikasında artıq on ildən çoxdur ki, qazlaşdırma 100 faiz təmin edilibdir.

Elektrik enerjisi ilə bağlı məsələlər öz həllini tapıb. Mənim yadımdadır, 1990-cı illərin əvvəllərində atamın yanına gələrkən qaranlıq içində yaşayırdıq, biz özümüzü şam işığı ilə təmin edirdik. Ulu öndər Heydər Əliyev iş kabinetində neft lampasının işığında işləyirdi. Yəni, biz o günləri yaxşı xatırlayırıq. Bu gün elektrik enerjisi ilə bağlı bütün problemlər həll olunub. Son illərdə 8 elektrik stansiyası tikilib. Hazırda tikilməkdə olan 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyası işə düşəndən sonra Naxçıvan Muxtar Respublikası öz enerji tələbatının 100 faizini bərpaolunan enerji hesabına təmin edəcək. Bu, dünya miqyasında bəlkə də yeganə belə bir hal olacaqdır.

Bu gün Naxçıvan elektrik enerjisini ixrac edə bilər. Şadam ki, o cümlədən günəş elektrik stansiyası tikilib, su elektrik stansiyaları tikilir və Naxçıvanın artan sənaye potensialını təmin edəcək güclü elektrik təsərrüfatı yaradılır. Naxçıvanın əhalisi artır, sənaye istehsalı bundan sonra da artacaq. Ona görə bu məsələyə biz daim diqqət göstərməliyik.

İçməli su layihələri uğurla icra edilir. Bu gün biz Şərur şəhərinin içməli su layihəsini rəsmi olaraq açdıq. Ondan əvvəl Naxçıvan, Şahbuz, Culfa şəhərlərinin içməli su layihələri başa çatıb. Digər şəhərlərdə işlər gedir və bütün şəhərlərin içməli su-kanalizasiya problemləri həll olunacaqdır.

Avtomobil yolları salınır. Hazırda Culfa-Ordubad avtomobil yolu salınır və bu yol şəhərlərarası yollar arasında sonuncu layihədir. Bundan əvvəl bütün digər şəhərlərarası yollar - Naxçıvan-Sədərək, Naxçıvan-Şahbuz, Naxçıvan-Culfa yolları tam təmir olunub, salınıb və istifadəyə verilib.





*Ardı 3-cü səh.*

# Naxçıvan Muxtar Respublikası uğurla, sürətlə inkişaf edir

## Naxçıvan Müəllimlər İnstitutunun yeni binası istifadəyə verilib

*Əvvəli 2-ci səh.*

Yəni bütün bu infrastruktur artıq Naxçıvanın güclü potensialını təmin edir. Sosial məsələlərin həlli, tikilən xəstəxanalar, məktəblər, Olimpiya mərkəzləri, mədəniyyət ocaqları - son illər ərzində görülən bütün bu işlər, əlbəttə ki, respublikanın potensialını artırır. Naxçıvan şəhər xəstəxanası, doğum mərkəzi, müalicə-diaqnostika mərkəzi, bütün şəhərlərin mərkəzi rayon xəstəxanaları tikilib. Yəni böyük quruculuq işləri aparılır.

Əlbəttə, iqtisadiyyatın real sektorunun inkişafına da böyük diqqət göstərilir. Sənaye müəssisələri yaradılır, ixrac imkanları artır, kənd təsərrüfatı uğurla inkişaf edir. Naxçıvan özünü taxılla təmin edir. Qəbul edilmiş son qərarlar kənd təsərrüfatının inkişafına daha da böyük təkan verəcək. Bitkiçiliklə bağlı pivot suvarma sistemlərinin quraşdırılması nəzərdə tutulur. Heyvandarlıqla bağlı süni mayalanma mərkəzi yaradılır ki, potensial daha da böyük olsun.

Bildiyiniz kimi, Azərbaycan hazırda "Şimal-Cənub" nəqliyyat dəhlizinin yaradılması ilə ciddi məşğuldur. Azərbaycan ərazisində bu layihə ilə bağlı bütün işlər görülüb. Biz bu layihənin tam başa çatması üçün böyük maliyyə vəsaiti ayırmışıq. Ümid edirəm ki, gələcək üç il ərzində bu layihə tam istifadəyə veriləcəkdir. Hər halda planımız bundan ibarətdir. Belə olan halda Naxçıvan dəmir yolu ilə Azərbaycanın əsas hissəsi ilə birləşəcək və beləliklə, blokadadan, mühasirədən canını qurtaracaqdır.

Yəni bu mühüm işlərin görülməsi bir daha onu göstərir ki, Naxçıvanın çox böyük potensialı var. Bir daha demək istəyirəm ki, burada görülən işlər çox böyük qiymətə layiqdir.

Onu da bildirmək istəyirəm ki, bu il Naxçıvan bütün İslam dünyasında artıq özünü göstərəcək. Çünki bu il Naxçıvan "İslam Mədəniyyətinin Paytaxtı" kimi şərəfli adı daşıyır. Bir neçə il bundan əvvəl Bakı bu ada layiq görülmüşdür və biz o vaxt ISESCO-ya müraciət etmişdik ki, biz istəyirik ikinci Azərbaycan şəhəri - məhz Naxçıvan şəhəri bu ada layiq görülsün. Çünki Naxçıvan buna layiqdir. Bilirəm ki, bu gözəl hadisə ilə bağlı təntənəli tədbirlər keçiriləcəkdir, çoxlu qonaqlar gələcəklər, bir daha görəcəklər ki, dünyada belə gözəl məkan var. Gözəl təbiəti, iqlimi, havası, mənzərəsi, binaları və ən önəmlisi, gözəl insanları olan gözəl məkan var - bu məkanın adı Naxçıvandır.



Sizi bir daha salamlayıram, bütün uğurlar münasibətilə təbrik edirəm, yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

İctimaiyyətin nümayəndələri adından çıxış edən **Xəzər HÜSEYNOV** dedi:

- Möhtərəm Prezident!

Ötən ilin əvvəlində Naxçıvan Muxtar Respublikasına səfəriniz zamanı qeyd etmişdiniz: "Ulu öndər Heydər Əliyev həmişə Naxçıvana diqqətlə yanaşırdı, problemlərin həlli üçün müvafiq göstərişlər verirdi və böyük qayğı göstərirdi. Mən də bu siyasəti davam etdirirəm".

2018-ci il aprelin 11-də keçirilmiş prezident seçkilərində qazandığı inamlı qələbə münasibətilə Prezident İlham Əliyevi Naxçıvan ictimaiyyəti adından təbrik edən Xəzər Hüseynov bildirdi ki, dövlət başçısının ötən 15 il ərzində muxtar respublikaya 14 dəfə səfər etməsi, 135-dən çox obyektin açılışında iştirakı naxçıvanlıların quruculuq əzmini daha da artırıb. O qeyd etdi ki, hazırda Naxçıvan Muxtar Respublikası ulu öndərin arzuladığı kimi, uğurlu və hərtərəfli sosial-iqtisadi inkişafını davam etdirir.

Xəzər Hüseynov doğma Azərbaycanımızın tərəqqisi naminə müəyyənləşdirilən dövlət siyasətinin həyata keçirilməsində naxçıvanlıların bundan sonra da fəal iştirak edəcəklərini vurğuladı, Naxçıvan Muxtar Respublikasının inkişafına hərtərəfli qayğısına görə Prezident İlham Əliyevə bir daha minnətdarlıqlarını çatdırdı.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

## Prezident İlham Əliyev Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin açılışında iştirak edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin açılışında iştirak edib.



Son illərdə ölkəmizin ərazisində yeni kollektor və xətlərin, tullantı sutəmizləyici qurğuların tikintisi, mövcud xətlərin yenidən qurulması, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi istiqamətində əhəmiyyətli addımlar atılıb. Prezident İlham Əliyevin imzaladığı regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının uğurlu icrası sayəsində bu sahədə də əhəmiyyətli nəticələr əldə olunub. Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən sosial siyasətin mərkəzində insan amili dayanır. Hər hansı sahə üzrə infrastruktur yaradılarkən, ilk növbədə, əhalinin rahat yaşayışının təminatı ön planda saxlanılır. Son illərdə Naxçıvan şəhər Təmizləyici Qurğular Kompleksinin yaradılması istiqamətində görülən işlər bunu deməyə əsas verir. Bu layihə bir tərəfdən ekoloji sahədə görülən tədbirləri əks etdirir, digər tərəfdən də yeni infrastruktur layihələrinin səmərəli istifadəsi üçün geniş imkanlar açır.



AZƏRTAC xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dövlət başçısına kompleks barədə məlumat verdi.

Bildirildi ki, kompleks giriş nasos stansiyasından, hovuzlardan, inzibati, transformator, kompressor binalarından, suvarma üçün nəzərdə tutulan su hovuzundan ibarətdir. Burada həmçinin iri tullantı tutucu, qum və yağ tutma, membran tipli təmizləyici, palçıqqurutma, havatəmizləyici qurğular quraşdırılıb. Ümumilikdə bu qurğunun fəaliyyəti 121 min istifadəçini əhatə edir. İcrasına 2014-cü ildə başlanılan layihə ötən ilin oktyabrında tamamlanıb. Qurğunun xidmət sahəsi Naxçıvan şəhəri, Qaraxanbəyli, Qaraçuq, Bulqan, Hacıniyyət, Tumbul, Babək rayonunun Şıxmahmud və Xəlilli kəndlərini əhatə edir. Bu qurğunun gücü gündə 32 min kubmetr və ya saniyədə 370 litrə bərabərdir. Kompleksdə bioloji fosfor təmizləmə hovuzu, oksigensiz hovuz, havalandırma hovuzu, suvarma su hovuzu inşa edilib. Buradakı hovuzların tutumu 25 min 650 kubmetrdir. Təmizləyici Qurğular Kompleksinin yerləşdiyi sahə 2,62 hektardır ki, bunun da 2 hektarı tullantıların saxlanması və qurudulması sahəsinə aiddir. Burada bioreaktor və membran tipli təmizləyici qurğu quraşdırılıb. Çirkab sutəmizləyici qurğu 3 mərhələli təmizləmə sistemindən ibarətdir. Kompleksdə təmizləmə prosesi fiziki, bioloji və membran təmizləmə üsulları ilə aparılır. Təmizlənmiş su isə ozonla dezinfeksiya olunaraq suvarma hovuzuna verilir. Layihənin icrası nəticəsində 500 hektar torpağın suvarılması mümkün olacaq.



Prezident İlham Əliyev kompleksi işə saldı.

Sonda xatirə şəkli çəkdirildi.

## Prezident İlham Əliyev Naxçıvan şəhər Qaraxanbəyli inzibati ərazi dairəsində 6 saylı tam orta məktəbin açılışını edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Naxçıvan şəhər Qaraxanbəyli inzibati ərazi dairəsində 480 şagird yerlik 6 saylı tam orta məktəbin açılışında iştirak edib.



AZƏRTAC xəbər verir ki, dövlət başçısı məktəbin binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin "Neft Azərbaycanın milli sərvətidir" deyimi yeni yüzillikdə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin tarixində başqa bir modeldə həqiqətə çevrildi. Azərbaycan Prezidentinin dünya ictimaiyyətinə ünvanladığı "Qara qızılı insan kapitalına çevirmək" mesajı 2003-cü ildən başlayaraq dövlət siyasətinin mühüm tərkib hissəsi oldu. Çünki müasir dünyada hər bir ölkənin gələcəyi təhsilin səviyyəsi ilə ölçülür.



Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da təhsildəki nailiyyətlər göz qabağındadır. Bu nailiyyətlər istər bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsində, istərsə də yeni təhsil müəssisələrinin inşasında özünü daha aydın göstərir. Təhsil sahəsi hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir. Azərbaycan da bu ölkələr sırasındadır. Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər deməyə əsas verir ki, Azərbaycan öz gələcəyini daha etibarlı və inamlı görmək istəyir. Bundan başqa, zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsini başlıca amil seçib.

Prezident İlham Əliyev məktəbdə yaradılan şəraitlə tanış oldu.

Məktəbin binası üçmərtəbəlidir. Binada iki kompüter sinfi, 3 elektron lövhəli sinif, fizika, kimya və biologiya laboratoriyaları, 2 şahmat sinfi, hərbi kabinet, 24 ümumi sinif otağı, müəllimlər otağı və idman zalı var. Məktəbin həyətində qazanxana quraşdırılıb. Bir sözlə, burada şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olmaq üçün hərtərəfli imkanlar mövcuddur.

Son illərdə Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da yeni-yeni təhsil ocaqlarının yaradılması, mövcudlarının əsaslı şəkildə müasir səviyyədə yenidən qurulması dövlət səviyyəsində təhsil sahəsinə olan diqqətin təzahürüdür. Bütün bunlar gələcək nəslin bilikli, savadlı və intellektual səviyyəyə malik bir vətəndaş kimi yetişməsində mühüm rol oynayır. Ümumilikdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda təhsilin, elmin inkişafına istiqamətlənən çox mühüm layihələr icra olunub. Təsadüfi deyil ki, son illərdə ölkə ərazisində 3 mindən çox məktəb tikilib, bir çox məktəb binaları üçün yeni korpuslar inşa olunub. Bununla da təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli addımlar atılıb. Bütün bunlar isə Azərbaycanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da təhsilin keyfiyyətinə müsbət təsir göstərib.





# Naxçıvan Muxtar Respublikası uğurla, sürətlə inkişaf edir

## Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsindəki sərhəd dəstəsində yaradılan şəraitlə tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev mayın 16-da Dövlət Sərhəd Xidmətinin Naxçıvan şəhər Qaraçuq ərazi dairəsində Əmiraslan Əliyev adına Sərhəd Dəstəsində yaradılan şəraitlə tanış olub.**





Üçrəngli bayrağımızın Silahlı Qüvvələrdə ilk dəfə 1992-ci il avqustun 22-də Naxçıvan Sərhəd Dəstəsində qaldırılması, şimal və şimal-qərb sərhədlərimizdə ilkin zəruri infrastrukturların yaradılmasından tutmuş Dövlət Sərhəd Xidmətinin təşkilinə qədər bütün proseslər ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyevin Sərhəd Qoşunlarının formalaşdırılması istiqamətində verdiyi qərarların nəticəsində Azərbaycan öz sərhədlərini müstəqil qorumağa qadir olan ölkəyə çevrildi. Müstəqil dövlətimizin sərhədlərinin etibarlı qorunmasının yüksək səviyyədə təşkili sonrakı dövrdə də prioritet oldu. Ulu öndərin siyasətini uğurla davam etdirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordu quruculuğunun əsas istiqamətlərindən olan Sərhəd Qoşunlarını da dövlət qayğısı ilə əhatə etdi. Ali Baş Komandanın ölkəmizin sərhədçiləri ilə çoxsaylı görüşləri Dövlət Sərhəd Xidmətinin inkişafına, ölkəmizin sərhədlərinin mühafizəsinə göstərilən diqqət və qayğının əyani təzahürünə çevrildi. Təsadüfi deyil ki, son illərdə Dövlət Sərhəd Xidmətinin fəaliyyəti keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Xidmətin maddi-texniki bazasının gücləndirilməsi, yeni sərhəd dəstələri və zastavalarında müasir şəraitin yaradılması əlbəttə ki, Sərhəd Qoşunlarının inkişafına göstərilən qayğının bariz nümunəsidir.

AZƏRTAC xəbər verir ki, Naxçıvan Əlahiddə Sərhəd Diviziyasının komandiri Asəf Quliyev Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Bildirildi ki, Əmiraslan Əliyev adına Sərhəd Dəstəsinin qərargah və yataqxana binası üç mərtəbədən ibarətdir. Binada rabitə, xidmət, silah, yataq otaqları, mətbəx, əsgər və zabit yeməkxanası yaradılıb. Binanın ikinci mərtəbəsində hərbçilər üçün 16 yerlik yataqxana, 48 yerlik əsgər yataqxanası və 4 yerlik zabit yataqxanası yerləşir. Burada ərzaq mağazası və əsgərlər üçün əlavə ləvazimatların satışı dükanı da hərbçilərə xidmət göstərəcək. Binada, həmçinin ikiotaqlı 4 mənzil də var.

Dövlət başçısı ölkədə sərhəd xidmətinin təkmilləşdirilməsinə dair kompleks tədbirlərin həyata keçirilməsini və sərhəd dəstələrinin fəaliyyətinin ən müasir tələblər səviyyəsində qurulmasını daim diqqət mərkəzində saxlayır. Havada, suda və quruda sərhədlərin etibarlı şəkildə qorunmasını təşkil etmək üçün bütün zəruri tədbirlər görülür. Bu işlərlə yanaşı, sərhədçilərin mənzil-məişət, sosial məsələlərinin həllinə də daim diqqət göstərilir.

Zastavanın texniki binasında əsgərlər üçün müasir səviyyədə hamam və camaşırxana, ərzaq, əşya və silah anbarları, avtomobillərin saxlanması üçün qaraj da yaradılıb. Kinoloji xidmət üçün 7 yerlik və atların saxlanması üçün 12 yerlik tövlə binası tikilib. Ərazidə genişmiqyaslı abadlıq-quruculuq işləri aparılıb, yaşıllıqlar salınıb. Burada hərbçilərin idmanla məşğul olmaları üçün hər cür şərait yaradılıb.

## Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsində yaradılan şəraitlə tanışlıq

### Prezident, Ali Baş Komandan İlham Əliyev yeni hərbi xəstəxananın açılışını edib








Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mayın 16-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olub.





Ölkəmizdə yeni hərbi hissələrin yaradılması, mövcud hərbi hissələrdə infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında da böyük əhəmiyyətə malik layihələr icra olunub. Bu gün muxtar respublikanın müdafiə potensialı və gücü durmadan artır. Ümumilikdə, ölkəmizdə həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində bu gün hərbi hissələrin komplektləşdirilmə faizi və keyfiyyəti yüksək səviyyədədir, əsas komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsili olan mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə təmin olunması ardıcıl şəkildə həyata keçirilir. Bununla yanaşı, birinci əməliyyat eşelonu birliklərində dayanıqlı müdafiənin təmin olunması istiqamətində əməli tədbirlər görülüb, müdafiə sistemi təkmilləşdirilib, qoşunların döyüş qabiliyyəti yüksək səviyyədə saxlanılıb. Ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub və həmin təlimlərdə ən müasir tələblərə cavab verən simulyator və kompüter şəbəkələrindən istifadə edilib. Son illərdə ordunun müasir silah və texnika ilə təchiz olunması istiqamətində də əməli tədbirlər görülüb. Dövlət başçısının təşəbbüsü ilə 2005-ci ildən fəaliyyət göstərən Müdafiə Sənayesi Nazirliyinin yenidən qurulan müəssisələrində istehsal olunan silah və texnika hazırda ordumuzun maddi-texniki təchizatında aparıcı rol oynayır.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordusunun komandanı general-leytenant Kərəm Mustafayev dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Azərbaycan Prezidenti silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış oldu.

Ali Baş komandana "ORBİTER-3B" pilotsuz uçuş aparatı təqdim edildi. Bildirildi ki, cəmi 28 kiloqram çəkisi olan bu aparatla 5500 metr maksimal hündürlükdə canlı yayımda gecə və gündüz şəraitində düşmən ərazisində havadan kəşfiyyat aparmaq, aşkar edilmiş hədəflərin koordinatlarını təyin etmək mümkündür. Sürəti saatda 93 kilometr olan aparatın maksimal uçuş məsafəsi 120 kilometr, uçuş müddəti isə 7 saatdır.

Qarnizonun arsenalına yeni qəbul olunmuş 60, 82 və 120 millimetrlik minaatanlar üçün simulyator dəsti döyüş mərmilərini sərf etmədən, komplektində olan pnevmatik mərmilərlə praktiki atəş tapşırıqlarının yerinə yetirilməsi üçün təyin olunub. Komplektə 20 pnevmatik mərmi və 100 partlayıcı maddə daxildir.

Ali Baş Komandana təqdim olunan 82 millimetrlik minaatan batareyası üçün rabitə və avtomatlaşdırılmış idarəetmə dəsti 5 kilometr dərinlikdə hədəfin aşkar edilməsi, hədəf haqqında məlumatların avtomatlaşdırılmış idarəetmə sistemi ilə atəş mövqeyinə ötürülməsi və atış üçün hesabatların aparılması, 120 millimetrlik minaatan və 122 millimetrlik "D-30" haubitsalı artilleriya batareyası üçün rabitə və avtomatlaşdırılmış idarəetmə dəsti isə 15-20 kilometr dərinlikdə hədəfin aşkar edilməsi, hədəf haqqında məlumatların avtomatlaşdırılmış idarəetmə sistemi ilə atəş mövqeyinə ötürülməsi və atış üçün qurğuların hesablanmasına təyin olunub.

"Su-25" hücum təyyarəsi gündüz və gecə, adi və mürəkkəb hava şəraitlərində yerüstü və hava hədəflərini məhv etmək və bilavasitə döyüş meydanında quru qoşunlarına dəstək vermək üçün yaradılıb. Saatda 1000 kilometrədək sürət yığan bu döyüş təyyarəsi 7 kilometrə qədər yüksəklikdə uça bilir.

Dövlət başçısı "S-125-2 TM" zenit-raket kompleksinin nəqliyyat doldurucu maşınının da texniki-taktiki göstəriciləri ilə tanış oldu. Üzərində kran quraşdırılmış nəqliyyat doldurucu maşın idarəolunan zenit raketlərin konteynerdə və açıq vəziyyətdə daşınması, buraxıcı qurğuya doldurulub-boşaldılması üçün nəzərdə tutulub. Bu texnika ilə 4 ədəd raket daşımaq mümkündür.

Prezident İlham Əliyevə "SAND CAT" zirehli avtomobilinin taktiki-texniki göstəriciləri barədə də məlumat verildi. Bildirildi ki, bu zirehli yüngül avtomobil komanda heyətinin, silahlı bölmələrin, onlara aid avadanlığın və silah sistemlərinin daşınması, düşmənin canlı qüvvəsinin, zirehli texnikalarının və möhkəmləndirilmiş atəş mövqelərinin məhv edilməsi üçün təyin olunub. Avtomobil 12,7 millimetrlik pulemyot, 2 raketdən ibarət "Spiker-LR" tank əleyhinə idarə olunan kompleks və 120 millimetrlik minaatanla təchiz edilib.

152 millimetrlik "QİASİNT-B" topu düşmənin canlı qüvvəsini, atəş vasitələrini və marş zamanı döyüş texnikalarını, cəmləşmə rayonlarını, dayaq məntəqələrini məhv etmək və susdurmaq imkanlarına malikdir. Bu qurğunun maksimal atış məsafəsi aktiv-reaktiv mərmi ilə 35,5, adi mərmi ilə 28,6 kilometrdir.

Müasir döyüş maşınlarından sayılan "BTR-82A" zirehli transportyor döyüş meydanında fəaliyyət göstərən piyadanın mobilliyini, silahlanmasını və müdafiəsini yüksəltmək, düşmənin canlı qüvvəsini, tank əleyhinə vasitələrini və yüngül zirehli texnikalarını məhv etmək üçün nəzərdə tutulur. Döyüş maşınında 30 millimetrlik top və 7,62 millimetrlik pulemyot quraşdırılıb.

Burada nümayiş olunan "TOS-1A" ağır odatan yaylım atəş sistemi düşmənin taqım dayaq məntəqələrini, həmlə edən bölüklərini, artilleriya və minaatan batareyalarının atəş mövqelərini və marşda olan avtomobil kolonlarını məhv etmək iqtidarına malikdir. 220 millimetrlik sistemin 24 istiqamətləndiricisi var və maksimal atəş məsafəsi 6 min metrdir.

"XRİZANTEMA-S" özüyeriyən tank əleyhinə raket kompleksi dinamik örtüklə təchiz edilmiş tankları, piyadaların döyüş maşınlarını və digər yüngül zirehli hədəfləri, fortifikasiya qurğularını və uzunmüddətli atəş nöqtələrini, alçaqdan uçan təyyarə və vertolyotları məhv etmək imkanlarına malikdir. Batareya komandirinin idarəetmə maşını düşmənin güc və vasitələrinin aşkar edilməsi, taqım və heyətlər arasında hədəflərin bölüşdürülməsi üçün təyin olunub.

Bütün bunlar göstərir ki, 100 illiyini qeyd etməyə hazırlaşdığımız Azərbaycan Silahlı Qüvvələrinin bu gün dünyanın ən güclü 50 ordusu sırasında olması heç də təsadüfi deyil. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən tədbirlər nəticəsində ordumuzun arsenalı dünyanın aparıcı ölkələrinin istehsalı olan silah-sursatla genişlənir və bu işdə Azərbaycanın milli müdafiə sənayesi kompleksinin imkanları mühüm rol oynayır.

Sonra Prezident İlham Əliyev Əlahiddə Ümumqoşun Ordusunun "N" saylı hərbi hissəsinin yeni hərbi xəstəxanasının açılışında iştirak etdi.

Dövlət başçısı xəstəxana binasının rəmzi açılışını bildirən lenti kəsdi.

Məlumat verildi ki, ən müasir tibbi avadanlıqla təchiz edilən üçmərtəbəli yeni xəstəxana binasında poliklinika-qəbul, terapiya, cərrahiyyə, anesteziologiya və reanimotologiya, təminat bölmələri və inzibati bölmə mövcuddur. Xəstəxananın poliklinika-qəbul bölməsində oftalmologiya, ginekologiya, lor, ultrasəs və elektroqrafiya kabinələri və laboratoriya fəaliyyət göstərəcək. Altmış çarpayılıq xəstəxana binasında şəxsi heyətə ilkin tibbi yardım göstərmək üçün sarğı, prosedur və təxirəsalınmaz yardım otaqları da yaradılıb. Burada şəxsi heyətin tibbi biliklərinin daha da artırılması məqsədilə hərbi tibbi hazırlıq üzrə məşğələlər keçmək üçün müasir tədris vəsaitləri ilə təmin edilən sinif və mühazirə zalı mövcuddur. Buradakı laboratoriya müasir avadanlıqla təchiz olunub. Bu isə laborator müayinələri operativ və yüksək dəqiqliklə yerinə yetirməyə imkan verir. Bir sözlə, xəstəxanada əsgər və zabitlərə yüksək səviyyədə tibbi xidmət göstərmək üçün hərtərəfli şərait yaradılıb. Bu tibb müəssisəsinin müasir avadanlıqla təchiz olunması Azərbaycanda ordu quruculuğu sahəsinin inkişafına göstərilən dövlət qayğısının əyani təzahürüdür. Bütün bunlar bir daha sübut edir ki, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev əsgər və zabitlərin sağlamlığının qorunmasına, həmçinin sosial məsələlərinin həllinə xüsusi həssaslıqla yanaşır və bu istiqamətdə mühüm işlər görür.

Yeni yaradılan hərbi hissədə əsgər yataqxanaları, əsgəri-məişət kompleksi, təlim-tədris mərkəzi, qərargah binası, xəstəxana inşa olunub, sıra meydanı, idman şəhərciyi salınıb.

Əlahiddə Ümumqoşun Ordusunun Təlim-Tədris Mərkəzində taktiki simulyasiya, trenajor, mədəni-kütləvi işin təşkili bölmələri, sənədli və tədris filmləri kinostudiyası, hərbi mətbəə yerləşir. Ümumi sahəsi 7500 kvadratmetr olan üçmərtəbəli binada, həmçinin zirehli texnika, raket-artilleriya sistemləri, rabitə, taktiki hazırlıq, qarovul hazırlığı, atəş hazırlığı, topoqrafiya, komandir hazırlığı və digər sinif otaqları, kitabxana, xarici dillər kabinəsi və 700 yerlik tədbirlər zalı vardır. Hərbi tədris proqramının keyfiyyətlə mənimsənilməsi, şəxsi heyətin peşəkarlığının və nəzəri biliklərinin artırılması üçün sinif otaqlarında lazımi şərait yaradılıb, kompüterlər quraşdırılıb, əyani vəsaitlər və məlumat stendləri qoyulub. Trenajor zalında tank, artilleriya və digər zirehli texnikaların idarə olunması, eləcə də texniki və atış sistemləri üzrə 18 trenajor quraşdırılıb. Trenajorlar vasitəsilə zirehli texnikaların idarə olunması və döyüş zamanı onlardan atəş açılması öyrədilir. Keçirilən təlimlərin sonunda qiymətləndirmənin aparılması isə şəxsi heyətin bilik səviyyəsini və peşəkarlığını müəyyən etməyə imkan verir. Simulyasiya mərkəzində artilleriya qurğularının taktiki-texniki xüsusiyyətləri, həmçinin atışın idarə olunması üzrə məşğələlərin praktik mənimsənilməsi üçün hər cür şərait yaradılıb, otaqlarda mərkəzdən idarə olunan və xüsusi proqram təminatına malik 100 kompüter və proyektor quraşdırılıb. Atəş hazırlığı otağında yaradılan virtual təlim meydançası döyüş sursatı sərf etmədən müxtəlif şəraitdə atəşin idarəolunmasını həyata keçirməyə imkan verir. Həmçinin burada atəş tapşırıqlarını təhlil etmək və qiymətləndirmək, atəş göstəricilərinin dəqiqliyini müqayisə etmək mümkündür. Mərkəzin kitabxanasında Azərbaycan və dünya ədəbiyyatı nümunələri, eləcə də ordumuzun keçdiyi tarixi inkişaf yolunu əks etdirən 16 mindən artıq kitab, qəzet və jurnal materialları toplanıb. Burada şəxsi heyətin gündəlik dövri mətbuatla tanış olmaq, hərbi və bədii ədəbiyyatları mütaliə etmək imkanı var. Hərbi sahəyə dövlətimizin göstərdiyi diqqətin nəticəsidir ki, bu gün Əlahiddə Ümumqoşun Ordusunda gənc əsgərlərin peşəkar döyüşçü kimi hazırlığı da daxil olmaqla, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, gizir və zabit hazırlığı kursları da təşkil edilir, zabit heyətinin təkmilləşdirilməsi kursu da uğurla icra olunur.

# Səfər başa çatdı



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri mayın 16-da başa çatıb.

AZƏRTAC xəbər verir ki, Naxçıvan Beynəlxalq Hava Limanında dövlət başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və hökumətin üzvləri yola saldılar.

## Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi həyatında özünəməxsus yer tutan, zəngin mədəniyyəti, qədim tarixi və dövlətçilik ənənələri olan Naxçıvan Muxtar Respublikası çox mürəkkəb, lakin parlaq inkişaf yolu keçərək ölkəmizin inkişafında hər zaman əhəmiyyətli rol oynamışdır.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarının uğurlu icrası nəticəsində öz qədimliyini və tarixiliyini qorumaqla bu gün də sürətlə inkişaf edən Naxçıvan Muxtar Respublikasında əsaslı dəyişikliklər baş vermiş, sənaye məhsulunun həcmi 34,4 dəfə, əsas kapitala yönəldilmiş investisiyalar 15,9 dəfə, o cümlədən tikinti quraşdırma işləri 15,2 dəfə artmış, irimiqyaslı infrastruktur layihələri yerinə yetirilmiş, elektrik stansiyaları istismara verilmiş, içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihələri həyata keçirilmiş, müasir avadanlıqla təchiz edilmiş idman kompleksləri, təhsil və səhiyyə müəssisələri, mədəniyyət və turizm obyektləri inşa edilmiş, yeni yollar çəkilmiş, istehsal müəssisələri yaradılmış, 72 mindən çox yeni iş yeri açılmışdır.

Şəhər və rayon mərkəzlərində, ayrı-ayrı yaşayış məntəqələrində genişmiqyaslı abadlıq-quruculuq işləri görülmüş, istirahət bağları və parklar salınmış, müasir üslublu tikililər, milli arxitekturalı binalar ucaldılmış, tarixi memarlıq abidələri bərpa edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsini, habelə "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda müəyyən olunmuş tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 10,0 (on) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2018-ci il*

## Naxçıvan Muxtar Respublikasında Culfa-Ordubad magistral avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Son illərdə həyata keçirilən sosial-iqtisadi siyasət sayəsində ölkədə yüksək inkişafa nail olunmuş, aparılan islahatlar və genişmiqyaslı infrastruktur layihələri davamlı inkişaf üçün şərait yaratmışdır. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq, avtomobil yollarının tikintisi və yenidən qurulması istiqamətində ardıcıl məqsədyönlü tədbirlər həyata keçirilməkdədir. Hazırda respublikanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının nəqliyyat-yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı mühüm layihələr uğurla icra olunur.

Naxçıvan Muxtar Respublikasında avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Culfa-Ordubad avtomobil yolunun yenidən qurulması işlərinin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.2-ci yarımbəndində göstərilmiş məbləğin 30,0 (otuz) milyon manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2018-ci il*

## Ordubad Su Elektrik Stansiyasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Sosial-iqtisadi inkişaf üçün xüsusi əhəmiyyət kəsb edən elektrik enerjisi sistemində yeni qurğuların inşası, ötürücü və paylayıcı şəbəkələrin yaradılması ölkəmizdə innovativ texnologiyaların tətbiqi əsasında daha da təkmilləşdirilir. Son illərdə bu sahədə ayrı-ayrı dövlət proqramları çərçivəsində icra edilən tikinti-quruculuq işləri generasiya potensialını əhəmiyyətli dərəcədə artırmış, ötürücü və paylayıcı infrastrukturu genişləndirmişdir. Ölkə ərazisində, o cümlədən Naxçıvan Muxtar Respublikasında yeni elektrik stansiyalarının istismara verilməsi həyata keçirilən sosial-iqtisadi siyasətin uğurla davam etdirilməsinə zəmin yaradır.

Naxçıvan Muxtar Respublikasında elektrik enerjisi təchizatının yaxşılaşdırılması məqsədilə Ordubad rayonunda inşa olunan 36 MVt gücündə su elektrik stansiyasının tikintisinin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Gücü 36 MVt olan Ordubad Su Elektrik Stansiyasının tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.2-ci yarımbəndində göstərilmiş məbləğin 10,0 (on) milyon manatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2018-ci il*

## Naxçıvan Muxtar Respublikası ərazisində meliorativ tədbirlərin həyata keçirilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Aqrar sahədə aparılan uğurlu islahatlar nəticəsində bir sıra strateji məhsullara tələbatın yerli istehsal hesabına təmin edilməsi, ölkənin ərzaq təhlükəsizliyində xarici bazardan asılılığın azaldılması, ixracyönümlü məhsulların istehsal həcminin artırılması istiqamətində son illərdə mühüm addımlar atılmışdır. Respublikada müasir tələblərə cavab verən su anbarlarının, nasos stansiyalarının, suvarma kanallarının və digər su təsərrüfatı obyektlərinin tikilməsi, on minlərlə hektar torpaq sahəsinin əkin dövriyyəsinə cəlb edilməsi aqrar sektorun dayanıqlı inkişafı üçün zəmin yaratmış, kənd təsərrüfatı bitkiləri və heyvandarlıq məhsulları istehsalının inkişafına xidmət edən aqroparkların və iri kənd təsərrüfatı müəssisələrinin fəaliyyətə başlamasına imkan vermişdir.

2017-ci ildə Naxçıvan Muxtar Respublikasında mövcud potensialdan səmərəli istifadə olunmaqla görülmüş meliorativ tədbirlər nəticəsində 407 hektar sahədə su resurslarından qənaətlə istifadəyə imkan verən müasir suvarma sistemlərinin quraşdırılması başa çatdırılmışdır.

Bu istiqamətdə işlərin davam etdirilməsinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Pivot" layihəsi çərçivəsində 1000 hektar əkin sahəsində müasir suvarma (yağışyağdırma) sistemlərinin quraşdırılması işlərinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.31.2-ci yarımbəndində göstərilmiş məbləğin 5,0 (beş) milyon manatı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 may 2018-ci il*

# Bakıda XXIV Beynəlxalq Qida Sənayesi və XII Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri açılıb

## *Prezident İlham Əliyev tədbirdə iştirak edib*










Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 16-da Bakı Ekspo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq Qida Sənayesi "World Food Azerbaijan 2018" və XII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro 2018" sərgiləri ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, kənd təsərrüfatı naziri İnam Kərimov dövlət başçısına sərgilərlə bağlı məlumat verdi.

Bildirildi ki, ötən illə müqayisədə bu il "World Food Azerbaijan" və "Caspian Agro 2018" sərgiləri həm iştirakçıların sayı, həm də ekspozisiya sahəsi baxımından 12 faiz artım nümayiş etdirib. Sərgilərə dünyanın 34 ölkəsindən 402 şirkət qatılıb və bu şirkətlərin 70 faizini xarici, 30 faizini isə yerli istehsalçı və distribütorlar təşkil edir. Bu ölkələrin ticarət və sənaye palatalarının dəstəyi ilə şirkətlərin böyük milli qruplar ilə iştirakı sərginin vizit kartına çevrilib. Bu il sərgilərdə dünyanın 10 ölkəsini təmsil edən 12 milli və regional qrup iştirak edir.

Prezident İlham Əliyev "Azərsun Holdinq" Şirkətlər Qrupunun stendi ilə tanış oldu. Diqqətə çatdırıldı ki, 1991-ci ildən etibarən Azərbaycanda fəaliyyətə başlayan şirkət qida sektorunda əhəmiyyətli paya malikdir. Şirkətin zavodlarında geniş ixracat şəbəkəsi mövcuddur. Ölkə iqtisadiyyatına xeyli sərmayə qoyan "Azərsun Holdinq" bu müddət ərzində istehlakçıların rəğbətini qazana bilib.

"Grow Group Azərbaycan" şirkətinin stendi ilə tanışlıq zamanı məlumat verildi ki, istixanaların satışı və quraşdırılması sahəsində ixtisaslaşan şirkətin məhsulları ən son standartlara cavab verməklə yanaşı, tam avtomatlaşdırılmış müasir plastik və şüşə istixana komplekslərinin hazırlanmasını əhatə edir. "Grow Group Azərbaycan" 2009-cu ildən başlayaraq beynəlxalq şirkətlərlə əməkdaşlıq şəraitində dünyanın 80-dən çox ölkəsində müasir standartlara cavab verən məhsulları ilə diqqəti cəlb edir.

Sərgidə iştirak edən digər şirkət - "Grand Motors" MMC Azərbaycan bazarının tikinti, kənd təsərrüfatı, istirahət və əyləncə sektorunu hədəf götürüb və fəaliyyətini bu istiqamətdə qurub. Bu baxımdan, "Grand Motors" MMC ağır texnika və yük avtomobillərinin Azərbaycan Respublikasına idxalını və satışını həyata keçirir. Dünyada tanınmış 14 istehsalçının Azərbaycanda rəsmi təmsilçisidir. Bu istehsalçılardan biri də "Nyu Holland"dır. "Nyu Holland" müştərilərə məhsuldarlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsini vəd edir.

"Maschio Gaspardo" şirkəti torpaq və quruntun işlənilməsi, əkin aqreqatları, ot biçini və yığımı, gübrələrin verilməsi üçün nəzərdə tutulan kənd təsərrüfatı avadanlıqlarının istehsalı üzrə liderdir. Şirkət 10 iri istehsal mərkəzindən ibarətdir və dünyada bir sıra kommersiya filialları ilə təmsil olunur.

150 illik tarixə malik "Göygöl şərab zavodu" ASC Azərbaycanın ən qədim şərab emalı müəssisəsidir. 1860-cı ildə yaradılan müəssisənin 507 hektarlıq üzüm təsərrüfatı var. Zavodda istehsal olunan şərab xüsusi materialdan hazırlanan çənlərdə standartlara uyğun saxlanılır. Şirkət müxtəlif növ spirtli və alkoqolsuz sərinləşdirici içkilər istehsalı ilə bazarda önəmli yer tutur.

Sərgidə xüsusi pavilyonla təmsil olunan Gürcüstan bu beynəlxalq tədbirə öz kənd təsərrüfatı məhsullarını təşviq etmək və onların beynəlxalq miqyasda tanıdılması baxımından böyük əhəmiyyət verir. Gürcüstanın Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyi bu sərgidə ilk dəfə 2015-ci ildə iştirak edib və "Ən yaxşı ölkə təqdimatı" sertifikatına layiq görülüb. Builki sərgidə Gürcüstanı 10-a yaxın şirkət təmsil edir.

Azərbaycan Nar İstehsalçıları və İxracatçıları Assosiasiyası 2016-cı ildə fəaliyyətə başlayıb. Ölkəmizdə narçılığın inkişaf etdirilməsini, narın xarici bazarlara çıxarılmasını və ixrac miqyasının yeni bazarlar hesabına genişləndirilməsini qarşıya məqsəd qoyan assosiasiya hazırda "Made in Azerbaijan" brendi ilə məhsul istehsalını təşviq edir.

İtaliyanın "Antonio Carraro" şirkəti istehsal etdiyi kənd təsərrüfatı texnikasının satışının dünya bazarında stimullaşdırılması ilə bağlı tədbirlər görür. Bakıda keçirilən builki sərgiyə şirkətin göstərdiyi maraq da məhz bundan qaynaqlanır.

Yerli şirkətlərdən olan "Gilan Pivot" MMC-nin fəaliyyəti də maraq doğurur. Neftçala Sənaye Məhəlləsinin ərazisində yerləşən MMC-də investisiya dəyəri 1 milyon manat olan istehsal sahəsi yaradılıb. Bu müəssisədə ildə 400 ədəd suvarma sistemi istehsal edilə bilər. Bu isə 20 min hektar əkin sahəsinin suvarılması deməkdir.

Rusiyanın "Rostselmaş" şirkəti də builki sərgidə fəal iştirak edir. Eyni ad altında avadanlıq istehsal edən 13 müəssisədən ibarət olan şirkətin məhsul xəttinə 24 növ texnika və 150-dən çox model və modifikasiya daxildir.

Sərginin fəal iştirakçıları sırasında olan "Fruit Life" şirkəti Avropa İttifaqı və Yunanıstanın köməyi ilə maliyyələşdirilən kampaniyadır və Aİ standartlarına uyğun məhsulların bazara çıxarılmasını təmin edir.

Belarus Respublikası da bu sərgidə bir neçə şirkətlə təmsil olunur. "Belin-ter-ekspo" bu ölkənin milli ekspozisiya və pavilyonlarının rəsmi operatorudur. Sərgidə Belarusun kənd təsərrüfatı və qida sənayesində ixtisaslaşmış şirkətləri öz məhsullarını təqdim edir. Bura Azərbaycanda da fəaliyyət göstərən "Belaruski" ticarət şəbəkəsinin, Belarusun ən iri özəl baytarlıq preparatları hazırlayan şirkətlərindən olan "Belekotexnika"nı daxil etmək olar.

Sərgidə Yunanıstan ayrıca stendlə təmsil olunur.

Altay diyarı Rusiyada ekoloji təmiz qida məhsullarının ən böyük istehsalçısıdır. Sərgidə ayrıca stendi olan bu diyarın məhsulları ixrac üçün nəzərdə tutulub və bütün beynəlxalq tələblərə uyğundur.

2016-cı ildən fəaliyyətə başlayan "Balxurma" müəssisəsi quru və yarım-quru meyvələrin istehsalı sahəsində öndə gedən, avtomatlaşdırılmış texniki avadanlıqla təchiz olunan, nəzdində yuyulma, soyulma, soyutma və qablaşdırma sexləri fəaliyyət göstərən, müasir standartlara cavab verən müəssisədir.

Avropa bazarında kifayət qədər tanınan Latviya Mərkəzi Südçülər Assosiasiyasının "Milk-river" kampaniyasının məqsədi Aİ ölkələrində istehsal olunan süd məhsullarının rəqabətqabiliyyətliliyinin təşviqi və ABŞ, Birləşmiş Ərəb Əmirlikləri, İsrail, Azərbaycan və Çin kimi ölkələrdə bazar payının artırılmasıdır.

İtaliya builki sərgidə bir çox şirkətlə təmsil olunur. Dünyada kənd təsərrüfatı sahəsində məşhur olan İtaliya şirkətləri sərgidə öz kənd təsərrüfatı texnikalarını və məhsullarını təqdim edirlər. Bu ölkənin stendində qida məhsullarının emalı, soyuducu, yuyucu, təmizləyici avandanlıq istehsalı üzrə ixtisaslaşan italyan şirkətləri barədə də geniş məlumat almaq mümkündür.

Türkiyə həmişəki kimi, sərgidə daha çox şirkətlə təmsil olunan ölkələrdən biridir. Qardaş ölkə builki sərgiyə kənd təsərrüfatının və qida sənayesinin bir çox spektrlərini əhatə edən şirkətlərin məhsullarını çıxarıb. Plastik qablaşdırma sahəsində ixtisaslaşan Türkiyənin "Polipa" şirkətinin məhsulları sərgidə xeyli maraq doğurub. "Tekno-Ser" şirkəti isə irriqasiya və istixana komplekslərinin geniş çeşidini təqdim edir.

Sərginin "Holland pavilyonu"nda Niderland Krallığının kənd təsərrüfatı və qida sektorunda fəaliyyət göstərən bir neçə şirkəti təmsil olunur. Onlar öz məhsullarını sərgi ziyarətçilərinə təqdim edirlər.

"ASAN xidmət"in nəzdində fəaliyyət göstərən "ABAD" publik hüquqi şəxs Prezident İlham Əliyevin fərmanı ilə 2006-cı ildə yaradılıb. Ölkəmizin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakına, kiçik və orta sahibkarlığın inkişafına, əhalinin məşğulluq səviyyəsinin artırılmasına və rəqabətqabiliyyətli ailə təsərrüfatlarının formalaşdırılmasına dəstək olan "ABAD" mərkəzlərinin yaradılması istiqamətində görülən işlər artıq öz bəhrəsini verib. Ailə biznesini dəstəkləyən bu mərkəzlər istehsal olunan məhsulların ölkədə və xaricdə satışını həyata keçirməyə xidmət edir.

Fəaliyyət göstərdiyi sahədə vahid dövlət siyasətinin hazırlanmasını və reallaşdırılmasını təmin edən Qida Təhlükəsizliyi Agentliyi qida məhsullarının təhlükəsizliyinə dair normativ tənzimləməni, risklərin təhlilini, qida məhsullarının qablaşdırma materiallarının dövlət qeydiyyatına alınmasını və digər funksiyaları həyata keçirir. Əsas diqqət genetik seleksiyaya məruz qalmış məhsulların istehlakdan kənarlaşdırılmasıdır.

*Ardı 6-cı səh.*

# Bakıda XXIV Beynəlxalq Qida Sənayesi və XII Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri açılıb

## Prezident İlham Əliyev tədbirdə iştirak edib





Əvvəli 5-ci səh.

Yerli "AMORİS" Məhdud Məsuliyyətli Cəmiyyəti meyvə və tərəvəz məhsullarının yetişdirilməsi sahəsində ixtisaslaşıb. Çoxillik təcrübəyə malik olan şirkət yeni bitki növlərinin yetişdirilməsi və "BİS" markası altında müştərilərə çatdırılmasını qarşıya hədəf qoyub.

Litvanın "Svalya" şirkəti Baltikyanı regionda aparıcı mövqe tutur. Avropa İttifaqı və MDB məkanında böyük nüfuz qazanan şirkət süd və süd məhsullarının geniş çeşidinin istehsalı ilə məşğuldur.

Kənd təsərrüfatı texnikalarının ekspozisiyası həm Bakı Ekspo Mərkəzinin daxilində, həm də sərgi kompleksinin açıq platformasında yerləşir.

Sərgidə ölkəmizin kənd təsərrüfatının əsas istiqamətlərindən biri olan heyvandarlıq sahəsindəki nailiyyətləri də nümayiş olunur. "Gilan Kənd Təsərrüfatı" şirkətinin fəaliyyəti və şirkətin müəssisələrində yetişdirilən heyvan cinsləri məhsuldarlığı ilə diqqəti cəlb edir.

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin məqsədi kənd təsərrüfatı məhsulu istehsalçılarının maddi-texniki bazasını yaratmaq, sahibkarları lizinq yolu ilə texnika, mineral gübrə, damazlıq heyvanlar, texnoloji avadanlıq, suvarma sistemi ilə təmin etmək, məhsul istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslərə güzəştli qiymətlərlə aqroservis xidmətlərini göstərməkdir.

"Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi müxtəlif modifikasiyalı Belarus traktorları, MAZ və KAMAZ yük avtomobilləri, avtomobil



kranları, müxtəlif təyinatlı qoşqular, ekskavatorlar, xüsusi traktorlar və digər məhsulları ilə Azərbaycan və xarici bazarda böyük nüfuz qazanıb.

İtaliyanın "Landini" şirkəti də kənd təsərrüfatı traktorlarının geniş çeşidini təqdim edir. Müəssisənin Almaniya, Fransa, Cənubi Afrika, Kanada və ABŞ-da filialları fəaliyyət göstərir.

Prezident İlham Əliyev adları yuxarıda qeyd olunan şirkətlərin və ölkələrin stendləri ilə tanış oldu.

Beləliklə, "WorldFood Azerbaijan" və "Caspian Agro" sərgiləri bir daha aqrar sənaye kompleksinin mütəxəssisləri üçün növbəti görüş yerinə çevrildi.

Hər iki sərgi keçirildiyi illər ərzində özünü qida sənayesi üzrə avadanlığın, məhsul və xidmətlərin nümayiş olunduğu, eləcə də müştərilər tapmaq, biznes tərəfdaşları ilə mövcud əlaqələri möhkəmləndirmək və yeni satış bazarlarına çıxmaq üçün imkanların yaradıldığı etibarlı platforma kimi doğrultmağa müvəffəq olub.

Sərgilər mayın 18-dək davam edəcək.

# Norveçin Kralı Əlahəzrət V Haralda

Əlahəzrət!

Norveç Krallığının milli bayramı - Konstitusiya Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Norveç xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 may 2018-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə səmimi təbriklərimi çatdırmaqdan böyük şərəf və məmnunluq hissi duyuram.

Böyük səs çoxluğu ilə yenidən Prezident seçilməyiniz həmvətənlərinizin mütləq əksəriyyətinin bir daha Sizin rəhbərliyinizlə uzunmüddətli inkişaf arzusunda olmasının bariz sübutudur.

Şübhəsiz ki, Azərbaycan Respublikası Sizin başçılığınızla seçdiyi dayanıqlı inkişaf yolunda böyük irəliləyişə nail olub.

Mən səmimiyyətlə inanıram ki, prezidentliyinizin yeni dönəmində də Azərbaycanın dinamik inkişafı davam edəcəkdir.

Cənab Prezident, bu xoş fürsətdən istifadə edərək ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə və bütün Azərbaycan xalqına müvəffəqiyyətlər, xoşbəxtlik və uğurlar diləyirəm.

Zati-aliləri, Sizə bir daha səmimi təbriklərimi çatdırır və qardaşlıq salamımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***İsmail Ömər QELLEH,***
***Cibuti Respublikasının Prezidenti***

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Malayziya Hökuməti və xalqı adından ürəkdən təbrik edirəm.

Seçkilərdəki inamlı qələbəniz ölkənizin mənafeyi naminə apardığınız müdrik və uzaqgörən siyasətinizi nümayiş etdirir. Əminəm ki, Siz qarşıdakı illərdə də Azərbaycan xalqının və dövlətinin rifahı naminə uğurlu islahatlar həyata keçirəcəksiniz.

Sizin prezidentliyinizin yeni dönəmi Malayziya ilə Azərbaycan arasında mövcud olan ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə və inkişaf etməsinə təkan verəcək.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Mahathir MƏHƏMMƏD,***
***Malayziyanın Baş naziri***

# İstanbulda spikerlərin QDİƏT Parlament Məclisinin 25-ci ildönümü ilə bağlı sammiti keçirilib

İstanbulda spikerlərin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) 25-ci ildönümünə həsr olunmuş sammiti keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti sammitdə iştirak edib. Tədbirdə Azərbaycanın QDİƏT PM-də nümayəndə heyətinin başçısı, deputat Eldar Quliyev, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər də iştirak ediblər.

Sammitin rəsmi açılışında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin baş katibi Asəf Hacıyev, QDİƏT Parlament Məclisinin sədri, Albaniya parlamentinin sədri Gramoz Ruçi və Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhrəman çıxış ediblər. Çıxışlarda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin ötən dövrdəki fəaliyyətinin nəticələrinə nəzər yetirilib, perspektivlərdən, eləcə də təşkilatın işinə mane olan məsələlərdən danışılıb.

Sonra təşkilatın 25 illiyinə həsr edilən film nümayiş olunub.

Təşkilata üzv ölkələrin nümayəndə heyətlərinin başçılarının çıxışları dinlənilib.

Gürcüstan parlamentinin sədri İrakli Kobaxidze, Bolqarıstan Xalq Məclisinin sədri Tsveta Karayançeva, Moldova parlamentinin sədri Andrian Kandu və başqaları Qara dəniz bölgəsində əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün mövcud imkanlar və şərtlər, üzv ölkələr arasında qarşılıqlı münasibətlərin əməkdaşlığa təsiri və s. məsələlər ətrafında fikir və mülahizələrini bölüşüblər. Qeyd olunub ki, mövcud münaqişələr təşkilatın səmərəli fəaliyyətinə mane olan başlıca amildir. Vurğulanıb ki, tranzit daşımalar üçün yeni beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması, ticarət






əlaqələrinin genişləndirilməsi və enerji təhlükəsizliyi üzv ölkələrin maraqlarını təmin edir. Bu mənada Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi və açılışına hazırlıq görülən TANAP layihəsi xüsusilə təqdirəlayiq işlər sırasındadır.

İstanbulda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin yubileyi münasibətilə tərəfləri təbrik edən Milli Məclisin Sədri Oqtay Əsədov bildirib ki, beynəlxalq siyasətin mühüm bir amilinə çevrilmiş parlament diplomatiyasının səmərəliliyi və dəyişən şəraitin tələblərinə uyğunlaşma qabiliyyəti Parlament Məclisinin fəaliyyətində bir daha sınaqdan keçmişdir. Beynəlxalq həyatda parlament diplomatiyasının əhəmiyyətinin artması müasir dünya siyasətinin önəmli cəhətlərindən biridir. Hökumətlərin xarici siyasət qərarlarına təsir göstərmək imkanına malik olan və bundan ötrü spesifik siyasi mexanizm və alətlərdən istifadə edən parlament diplomatiyası dövlətlər arasında əməkdaşlığın inkişafına kömək göstərir. Qloballaşma şəraitində dövlətlər və xalqlar arasında işbirliyi zərurətinin gücləndiyi bir şəraitdə parlament diplomatiyasının əhəmiyyətinin getdikcə artması tamamilə məntiqidir.

Azərbaycan Respublikasının Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və onun Parlament Məclisi çərçivəsində tərəfdaşlıq münasibətlərinin dərinləşməsinə böyük əhəmiyyət verdiyini diqqətə çatdıran Oqtay Əsədov qeyd edib ki, ölkələrimizin birgə səyləri ilə həyata keçirilən transmilli iqtisadi layihələr regionun zəngin təbii ehtiyatlarından, nəqliyyat imkanlarından və intellektual potensialından səmərəli istifadə etməyə imkan yaradır, ölkələrimiz üçün ümumi olan bir çox problemlərin həllinə yol açır. Təşkilatın üzvü olan 3 ölkənin - Azərbaycanın, Gürcüstanın və Türkiyənin iştirakı ilə regionda bir sıra transmilli layihələr həyata keçirilmişdir, bəzi layihələr isə icra mərhələsindədir. Xəzər dənizinin karbohidrogen ehtiyatlarını dünya bazarlarına çıxaran Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Azərbaycanın enerji potensialının dünyaya təqdim edilməsinə yönələn başqa nəhəng layihələr, Bakı-Tbilisi-Qars dəmir yolu, bölgənin tranzit potensialını inkişaf etdirən digər beynəlxalq nəqliyyat layihələri xalqlarımızın firavan gələcəyinin təmin edilməsinə yönəlmişdir. Bütün bunlar sübut edir ki, bölgəmizin dinamik inkişafı üçün hər cür şərait var. Lakin təəssüf ki, bir sıra münaqişələrin mövcudluğu regionun inkişafı yolunda böyük maneə olaraq qalır. Bizim zorla cəlb edildiyimiz Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin indiyədək həll olunmaması nəinki ölkəmizin inkişafını ləngidir, həm də regionda və ümumən dünyada sülh və sabitlik üçün ciddi təhlükə törədir.

Rəsmi hissədən sonra təşkilatın ən fəal üzvlərinin spikerlərinə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin 25 illik yubileyi münasibətilə təsis olunan "Şərəf" medalı təqdim edilib. Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov və Türkiyə Böyük Millət Məclisinin Sədri İsmayıl Qəhrəman "Şərəf" medalına layiq görülüblər.

Təşkilatın 25 illiyi ilə əlaqədar Birgə Bəyanat qəbul edilib.

Sammit çərçivəsində Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov ilə Gürcüstan parlamentinin sədri İrakli Kobaxidze arasında görüş olub.

Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim tədbirlərdə iştirak edib.

# Azərbaycan və Türkiyə parlamentlərinin sədrləri "Şərəf" medalı ilə təltif olunublar



Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədov və Türkiyə Böyük Millət Məclisinin Sədri İsmayıl Qəhrəman Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin 25 illik yubileyi münasibətilə təsis olunan "Şərəf" medalı ilə təltif olunublar.

AZƏRTAC xəbər verir ki, medal iki qardaş ölkənin parlament sədrlərinə QDİƏT Parlament Məclisinin 25-ci ildönümünə həsr olunmuş Spikerlərin Sammiti çərçivəsində təqdim olunub.

# İstanbulda Azərbaycan və Gürcüstan parlament sədrləri arasında görüş olub



Azərbaycan Milli Məclisinin Sədri Oqtay Əsədov ilə Gürcüstan parlamentinin sədri İrakli Kobaxidze arasında görüş olub.

AZƏRTAC xəbər verir ki, görüş İstanbulda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin (QDİƏT PM) 25-ci ildönümünə həsr olunmuş Spikerlərin Sammiti çərçivəsində keçirilib.

Azərbaycan-Gürcüstan münasibətlərinin tarixi köklərə bağlı olduğunu vurğulayan spiker İrakli Kobaxidze iki qonşu ölkə arasındakı əlaqələrin dinamik inkişafından, o cümlədən həyata keçirilən birgə layihələrin tarixi əhəmiyyətindən bəhs edib. İ.Kobaxidze Oqtay Əsədovu Gürcüstana səfərə dəvət edib.

Ölkələrimiz arasındakı mövcud səmimi dostluq və mehriban qonşuluq münasibətlərindən danışan Milli Məclisin Sədri Oqtay Əsədov bildirib ki, Azərbaycan-Gürcüstan əməkdaşlığı nümunəvi olmaqla bərabər, xalqlarımızın maraqlarını da tam şəkildə ifadə edir. Gürcüstana dəvəti qəbul edən Oqtay Əsədov, öz növbəsində, İrakli Kobaxidzeni də ölkəmizə səfərə dəvət edib.

Hazırda uğurla fəaliyyət göstərən Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, eləcə də perspektivdə olan TANAP və TAP layihələrinin icra vəziyyəti yüksək qiymətləndirilib.

Ölkələrimiz arasındakı münasibətlərin inkişafında Azərbaycan və Gürcüstan parlamentlərinin üzərinə məsuliyyətli və şərəfli iş düşdüyünü diqqətə çatdıran tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparıblar.

# “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; 1993, № 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 251; 2003, № 12, I kitab, maddə 677; 2005, № 4, maddə 291; 2006, № 10, maddə 846; 2007, № 3, maddə 213; 2008, № 6, maddələr 452, 472; 2009, № 1, maddə 4, № 5, maddə 312, № 7, maddələr 514, 515, № 12, maddə 974; 2010, № 3, maddə 174, № 11, maddə 960; 2011, № 11, maddə 992; 2012, № 7, maddə 664, № 11, maddələr 1036, 1048, 1061; 2013, № 5, maddələr 460, 478, № 10, maddə 1143, № 12, maddə 1477; 2014, № 6, maddələr 612, 623; 2015, № 12, maddə 1447; 2016, № 12, maddələr 1979, 2040; 2017, № 1, maddələr 16, 27, № 7, maddə 1311; № 10, maddə 1771, № 11, maddə 1962, № 12, I kitab, maddələr 2242, 2269; Azərbaycan Respublikasının 2018-ci il 13 fevral tarixli 1001-VQD nömrəli və 23 fevral tarixli 1018-VQD nömrəli qanunları) 2-ci maddəsində “Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20 illiyi” yubiley medalı;” hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

“Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” yubiley medalı;”

**Maddə 2.** “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə” təsdiq edilsin (əlavə olunur).

**Maddə 3.** “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsviri” təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2018-ci il*

*Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli Qanunu ilə təsdiq edilmişdir*

# “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə

**Maddə 1. Təltif edilən şəxslər**

“Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı ilə Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin varisləri və Azərbaycan Xalq Cümhuriyyəti irsinin tədqiqində və təbliğində, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunub saxlanılmasında və inkişafında, ölkənin ictimai-siyasi həyatında xüsusi xidmətlərinə görə Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

“Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanı tərəfindən təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

“Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

*Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli Qanunu ilə təsdiq edilmişdir*

# “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1. Medalın ümumi təsviri**

“Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra - medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, səkkizguşəli dalğavari konturlu, diametri 40 mm olan, üzərində ikitərəfli hamar şüalı səkkizguşəli ulduz yerləşdirilmiş lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində dalğavari səkkizguşəli konturlu hissəsində, səkkizguşəli ulduzun guşələrinin arasında kontur xətləri təsvir olunmuşdur.

2.2. Səkkizguşəli ulduzun üzərində xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşir. Xarici və daxili konturların arasında yuxarı qövs boyunca “Azərbaycan Xalq Cümhuriyyəti” sözləri, aşağı qövs boyunca mərkəzdə 3 mm diametri bir səkkizguşəli ulduz, ondan sol və sağ tərəflərdə hər birinin diametri 2 mm olan iki səkkizguşəli ulduz təsvir olunmuşdur. Ulduzların və ulduzlarla sözlərin arasında kompozisiyanı tamamlayan xətlər vardır.

2.3. Dairəvi lövhənin daxili konturunun içərisində doğan günəş şüaları üzərində aypara və səkkizguşəli ulduz təsvir olunmuşdur. Ulduzdan sol tərəfdə “1918”, sağ tərəfdə “2018” rəqəmləri yazılmışdır. Ayparanın daxilində “100” rəqəmi həkk olunmuşdur. Bütün elementlər, yazılar və kontur xətləri, relyefli olaraq qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

Medalın arxa tərəfi hamar səthlidir, aşağı hissəsində medalın seriyası və nömrəsi həkk olunmuşdur.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltara bərkidilmək üçün elementi olan, 42 mm x 15 mm ölçülü bant şəklində bükülmüş, üzərində hər birinin eni 5 mm olmaqla, Azərbaycan Respublikasının Dövlət Bayrağının rənglərini əks etdirən üfüqi zolaqlar təsvir edilmiş ipək lentə 2 halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. İpək lentin mərkəzində 17 mm x 22,5 mm ölçülü altıbucaqlı lövhə bərkidilir. Lövhənin üzərində günəş şüaları fonunda aypara və səkkizguşəli ulduz təsvir olunmuşdur. Lövhənin sol və sağ tərəfləri kontur boyunca palıd çələngləri formasında işlənmişdir. Günəş şüaları, aypara, ulduz və palıd çələngləri relyefli olaraq qabarıqdır.

4.3. Medala paltara bərkidilmək üçün elementi olan, eyni ipək lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur. Qəlibin mərkəzinə diametri 8 mm olan, üzərində aypara və səkkizguşəli ulduz təsvir olunmuş dairəvi lövhə bərkidilir.




# “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1092-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1092-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1092-VQD nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə”nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 may 2018-ci il*

# “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikasının Qanununu “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 738; 2005, № 6, maddə 466; 2007, № 5, maddə 401, № 11, maddə 1071; 2008, № 2, maddə 49) 5.2.13-cü maddəsində “işsizliyə görə müavinət” sözləri “işsizlikdən sığorta ödənişi” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2018-ci il*

# “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1079-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1079-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 may 2018-ci il*

# “Azərbaycan Respublikası hökuməti ilə Əfqanıstan İslam Respublikası hökuməti arasında hava əlaqəsi haqqında” Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası hökuməti ilə Əfqanıstan İslam Respublikası hökuməti arasında hava əlaqəsi haqqında” 2017-ci il dekabrın 1-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 aprel 2018-ci il*

# “Azərbaycan Respublikası hökuməti ilə Əfqanıstan İslam Respublikası hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında” Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası hökuməti ilə Əfqanıstan İslam Respublikası hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında” 2017-ci il dekabrın 1-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 aprel 2018-ci il*

# “Ədibin evi”ndə ümummilli lider Heydər Əliyevin 95 illiyi münasibətilə ədəbi-musiqili mərasim keçirilib







Mayın 16-da İçərişəhərdə “Ədibin evi”ndə Azərbaycan xalqının ümummilli lideri, müasir dövrün görkəmli ictimai-siyasi xadimi Heydər Əliyevin 95 illiyinə həsr edilən ədəbi-musiqili yubiley mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, ulu öndərin nəvəsi, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib.

Tədbiri açan əməkdar artist Nərgiz Cəlilova Azərbaycan söz sənətinin parlaq nümayəndələrindən biri olan Mir Cəlal Paşayevin 20 il bu evdə yaşayıb-yaratdığını diqqətə çatdırıb. Vurğulayıb ki, poeziya, yaradıcılıq ruhu ilə zəngin olan bu evin hər bir guşəsi bu gün ulu öndərin şərəfli ömür yolunun nuru ilə yenidən işıqlanıb. O, hamının adından Mir Cəlalın ailə üzvlərinə bu evin qapılarını tədbir iştirakçılarının üzünə açdıqları üçün təşəkkürünü bildirib.

Qeyd olunub ki, ilk bəşər övladının yarandığı gündən saysız-hesabsız insan dünya pəncərəsindən boylanıb keçir. Yalnız Heydər Əliyev kimi son dərəcə əzmkar, mübariz insanlar bütün çətinliklərdən mərd-mərdanə, qələbə çalaraq çıxır və adı ilə tarix yazır.

Mərasimdə ulu öndərin zəngin və şərəfli həyat yoluna həsr olunmuş “Heydər Əliyev və incəsənət” adlı film nümayiş etdirilib. Filmdə ümummilli liderin Azərbaycanın mədəniyyət və incəsənət xadimləri ilə görüşünə, Azərbaycan musiqisinə, ədəbiyyatına həssas münasibətini əks etdirən kadrlar yer alıb.

Filmin nümayişindən sonra Heydər Əliyevin “Uşaqlar bizim gələcəyimizdir” fikrini xatırladan aparıcı qeyd edib ki, bu ifadə ümummilli liderin körpələrimizin sağlamlığı, təhsili, sosial və mənəvi baxımdan təminatı, inkişafı yolunda gördüyü genişmiqyaslı işlərdə dəfələrlə öz təsdiqini tapıb. Onun uşaqlar və gənclərlə bağlı siyasətindəki bu qayğı və diqqət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir və zənginləşdirilir.

Daha sonra musiqili-ədəbi proqram təqdim edilib. Respublika İncəsənət Gimnaziyasının, Müslüm Maqomayev adına musiqi məktəbinin istedadlı şagirdlərinin ifasında Azərbaycan şairlərinin şeirləri, bəstəkar və xalq mahnıları səsləndirilib.

Tədbirdə Leyla Bəşirova “Zərifə sevgisi - Heydər sevinci” (Zəlimxan Yaqub), beynəlxalq müsabiqələr laureatı Kənan Babazadə “Ana” (Sevil Əliyeva) və “Elegiya” (Müslüm Maqomayev), Ayla Qafqazlı “Sevgili canan” və “Sənsiz” (Nizami Gəncəvi), respublika və beynəlxalq müsabiqələr laureatı Səma Həmzəyeva “Sənə də qalmaz” (Tofiq Quliyev), Fikrət Əliyev “Küçələrə su səpmişəm” (xalq mahnısı) və “Leyla” (Rauf Hacıyev), Canəli Canəliyev “Ayağa dur, Azərbaycan” (Məmməd Araz) əsərlərini səsləndiriblər.

Mərasimin maraqlı məqamlarından biri isə Leyla Əliyevanın babasına həsr etdiyi şeirlərini söyləməsi olub. Tamaşaçılar bu ifada Heydər Əliyev ziyasını bir daha duyublar.

Tədbir Süleyman Mahmudovun ifasında “Azərbaycan” mahnısı (Müslüm Maqomayev) ilə başa çatıb.

# Ulu öndər Heydər Əliyevin 95 illik yubileyi münasibətilə Astanada qazax dilində "Vətəninə yol açmış" adlı kitabın təqdimatı olub









Ulu öndər Heydər Əliyevin 95 illik yubileyi münasibətilə mayın 16-da Astanada, Qazaxıstanın Birinci Prezidenti Kitabxanasında qazax dilində "Vətəninə yol açmış" adlı kitabın təqdimatı olub. AZƏRTAC xəbər verir ki, Lomonosov adına Moskva Dövlət Universitetinin tarixçi alimlərinin kollektiv əsəri olan bu kitab rus dilindən Beynəlxalq Türk Akademiyası tərəfindən qazax dilinə tərcümə edilib. Kitaba ön sözü vaxtilə ümummilli lider Heydər Əliyevin çox yaxın dostu olmuş Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev yazıb.

Qazaxıstan Prezidenti Administrasiyası Dəftərxanasının rəhbəri, Qazaxıstan Respublikası Birinci Prezidenti Kitabxanasının direktor əvəzi **Mahmud Kasımbekov** tədbiri açaraq bildirib ki, ulu öndər Heydər Əliyevin bütün mənalı ömrü məhz Azərbaycan dövlətçiliyinin təşəkkül tarixi, Azərbaycan xalqının taleyi ilə bağlıdır. Dağların hündürlüyü uzaqdan yaxşı görünür, amma görkəmli şəxsiyyətlərin böyüklüyü zaman keçdikcə daha çox anlaşılır. Heydər Əliyev təkcə Azərbaycan xalqının deyil, bütün türk dünyasının fəxr etdiyi həmin qeyri-adi liderlərdən biridir. Ulu öndər Heydər Əliyev ötən əsrin 90-cı illərinin əvvəllərində siyasi və iqtisadi böhrana məruz qalan Azərbaycan Respublikasını inkişaf yoluna çıxardı. Ölkənin müstəqilliyini dönməz və əbədi etdi. Azərbaycan xalqının ümummilli lideri haqqında kitabın qazax dilinə tərcümə edilməsi və məhz elbası Nursultan Nazarbayevin bu kitaba ön söz yazması qardaş xalqlarımız arasında dostluğun əyani təsdiqidir. Ön sözdə ümummilli lider Heydər Əliyevin fəaliyyətinə yüksək qiymət verilir, Azərbaycan-Qazaxıstan münasibətlərinin inkişafında bu dahi şəxsiyyətin mühüm rolu qeyd edilir.

Azərbaycan Respublikası Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi **Əli Həsənov** çıxışında ulu öndər haqqında çox qiymətli bir kitabın qazax dilinə tərcümə edilməsində əməyi olanlara minnətdarlığını bildirərək deyib ki, bu kitab Heydər Əliyevin uşaqlıq illərindən başlamış siyasi Olimpin zirvəsinə qədər keçdiyi yolu izləməyə, həm də bu böyük şəxsiyyətin nə qədər hərtərəfli olduğunu görməyə imkan verir. Bu tarixi-bioqrafik əsər həm də onunla əlamətdardır ki, burada ulu öndər Heydər Əliyevi şəxsən tanıyan dövlət və hökumət başçıları, görkəmli siyasi xadimlər bu dahi şəxsiyyətin böyüklüyünü və müdrikliyini xüsusi vurğulayırlar. Bu kitab təkcə beynəlxalq məsələlər üzrə mütəxəssislər üçün deyil, həm də geniş oxucu auditoriyasında maraq doğuracaq. Əsər bu il 95 illik yubileyi qeyd edilən Azərbaycan liderinin zəngin tarixi irsi ilə təmasda olmağa imkan verəcək.

Ulu öndər Heydər Əliyevin fenomenal şəxsiyyət olduğunu vurğulayan Əli Həsənov deyib ki, bu gün müasir Azərbaycanı onsuz təsəvvür etmək çətindir. Bu görkəmli siyasi xadim təkcə öz xalqının və Azərbaycan dövlətçiliyinin tarixində deyil, həm də bütün postsovet məkanında silinməz izlər qoyub. O, dünyada danılmaz nüfuz və dərin hörmət qazanıb.

Heydər Əliyevin iki epoxanın, iki sosial-siyasi sistemin lideri olduğunu qeyd edən Prezidentin köməkçisi bildirib ki, sovet dönəmində o, Azərbaycanda yüksək vəzifələr tutub. Respublikanın rəhbəri kimi Heydər Əliyev Azərbaycanı yeni inkişaf mərhələsinə çıxarıb. Onun modernləşmə yönümlü siyasəti sayəsində Azərbaycan keçmiş SSRİ-də aparıcı mövqelər tuta bilib. 1980-ci illərin əvvəlində Heydər Əliyev sovet dövlət maşınının sükanı arxasında dayananlardan biri idi. Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi o, sosial-iqtisadi kompleksin ən mühüm sahələrinə rəhbərlik edir, sənayedən, nəqliyyatdan başlamış mədəniyyətə qədər çoxsaylı sahələrə görə cavabdehlik daşıyırdı. Bundan əlavə, o, sovet məktəbinin islahatı üzrə komissiyaya, Nazirlər Sovetinin operativ məsələləri üzrə komissiyaya rəhbərlik edirdi. Qeyri-adi xarizmaya malik olan bu dahi insan vəziyyəti hiss etməyi bacarırdı, qərarlar qəbul etmək və bunun bütün nəticələrini öncədən görmək qabiliyyətinə malik idi. O, heç kəsin edə bilməyəcəyi riskli addımlar atmağı, öz fikrini açıq söyləməyi və qətiyyətlə o fikir üstündə dayanmağı bacarırdı. 1986-cı ili xatırlamaq kifayətdir. Almatı hadisələri ərəfəsində Heydər Əliyev Sov.İKP MK Siyasi Bürosunun rəhbərləri arasında yeganə şəxsiyyət idi ki, o, pensiyaya gedən Kunayevin yerinə Sov.İKP Ulyanovsk Vilayət Komitəsinin birinci katibi Kolbinin təyin edilməsinin əleyhinə olduğunu bildirmişdi. O deyirdi ki, nə üçün həmin dövrdə Qazaxıstan SSR Nazirlər Sovetinin sədri olan, böyük nüfuz sahibi Nursultan Nazarbayev ola-ola respublikaya heç bir aidiyyəti olmayan bir insan rəhbərlik etməlidir. Ulu öndər Heydər Əliyevin uzaqgörənliyi çox keçmədi ki, öz təsdiqini tapdı və üç ildən sonra Nursultan Abişeviç Qazaxıstanın rəhbəri təyin olundu, ölkəni bacarıqla idarə edərək onun qarşısında duran ən mühüm məsələləri həll edə bildi.

Əli Həsənov vurğulayıb ki, təqdimatına toplaşdığımız bu kitabı vərəqləyərkən ulu öndər Heydər Əliyevin müstəqillik illərində Azərbaycanın xilası naminə gördüyü əzəmətli işlərin də şahidi oluruq. Çox mürəkkəb dövrdə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev dövləti məhv olmaq təhlükəsindən xilas etdi, milli birliyi dirçəltdi, azərbaycançılıq ideyasını dövlət siyasəti səviyyəsinə qaldırdı, əsl siyasi-iqtisadi müstəqilliyin təməlini qoydu. Bir sözlə, o, yeni dövlət yarada bildi, ən başlıcası - öz xalqına müstəqillik və azadlıq verməyə nail oldu. Prezident Heydər Əliyev fəaliyyəti dövründə tarazlaşdırılmış və çoxvektorlu xarici siyasət yürüdür, ölkələr və xalqlar arasında, o cümlədən Qazaxıstanla qarşılıqlı anlaşmanın inkişafına və dostluq əlaqələrinin möhkəmləndirilməsinə çalışırdı. Bu da aydın idi. Axı bizi ortaq tarix, etnik və mədəni köklər, dillərimizin oxşarlığı birləşdirir. Bundan əlavə, Heydər Əliyev və Nursultan Nazarbayev hələ sovet dövründə birgə iş üzrə bir-birini tanıyırdılar, mehriban münasibətləri qiymətləndirirdilər. Bizim ümummilli liderimiz deyirdi ki, onlar çoxdankı dostlardır. Nursultan Abişeviç də Heydər Əliyevi açıqürəkli və səmimi insan hesab edərək xatırlayırdı ki, ona güvənə, ondan dəstək ala bilirdi. O deyirdi: "Heydər Əliyev mənim yaxın dostum və çox dərin hörmət bəslədiyim siyasətçi idi. Heydər Əliyevin istər MDB ölkələri üçün, istərsə də öz xalqı üçün çox işlər görməsi bizim hamımıza məlumdur".

Prezidentin köməkçisi deyib ki, Azərbaycan ilə Qazaxıstan arasında iki qardaş lider tərəfindən yaradılmış bərabərhüquqlu, etimada əsaslanan tərəfdaşlıq münasibətlərini bu gün Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev uğurla davam etdirirlər. Əminəm ki, qardaş xalqlarımız arasında dostluq münasibətləri daim yaşayacaq və möhkəmlənəcək.

L.N.Qumilyov adına Avrasiya Milli Universitetinin rektoru **Yerlan Sıdıkov** qeyd edib ki, Heydər Əliyevin 95 illik yubileyi münasibətilə qazax dilinə tərcümə olunan kitab bizim üçün çox əhəmiyyətli hadisədir. Bu kitab Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tarixi xidmətlərinin tərənnümüdür. Heydər Əliyev bütün türk dünyasının liderlərindən biridir. O, dünya səviyyəli görkəmli dövlət xadimi və siyasi xadimdir. Bu kitabı vərəqləyərkən bir daha şahidi oluruq ki, o, dəfələrlə müxtəlif məsələlərdə Qazaxıstanı dəstəkləyib. Dahi şəxsiyyət barədə qazax dilində çap olunan bu kitabdan əminəm ki, universitetimizdə beynəlxalq münasibətlər ixtisası üzrə təhsil alan tələbələr dərs vəsaiti kimi istifadə edəcəklər.

Milli Məclisin deputatı, Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri **Adil Əliyev** bildirib ki, ulu öndər Heydər Əliyev haqqında qazax dilində kitabın təqdimatının Astanada keçirilməsinin böyük rəmzi mənası var. Çünki qardaş Azərbaycan və qazax xalqları eyni köklərə, eyni dinə, oxşar dilə malikdir. Azərbaycan ilə Qazaxıstanı sıx qardaşlıq telləri bağlayır. Bu qardaşlığımızı Azərbaycan və Qazaxıstan prezidentləri öz müdrik siyasətləri ilə daha da möhkəmləndirirlər. Siz ulu öndər haqqında qazax dilində bu kitabı oxuyarkən bir daha yəqin edəcəksiniz ki, Heydər Əliyev Azərbaycan xalqının xilaskarıdır, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur. Ulu öndər xalqlarımızın dostluğunun, rifahının möhkəmlənməsi naminə çox böyük işlər görüb. Bu siyasəti Azərbaycan Prezidenti İlham Əliyev və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev uğurla davam etdirirlər.

Beynəlxalq Türk Akademiyasının prezidenti **Darxan Kıdırəli** deyib ki, Azərbaycan xalqının tarixində müstəsna xidmətləri olan şəxsiyyətlər və görkəmli siyasət, dövlət adamları çox olub. Onlar zaman-zaman gördükləri böyük işlərlə iz buraxıblar. Amma bu tarixi şəxsiyyətlər arasında dünya miqyaslı siyasi xadim Heydər Əliyevin əvəzolunmaz yeri var. Sovet dönəmində Azərbaycanda ciddi islahatlar və quruculuq işləri həyata keçirən, müstəqillik illərində bu işləri böyük əzmlə davam etdirən Heydər Əliyev Azərbaycanın xilaskarı olub. Təsadüfi deyil ki, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev Heydər Əliyevin tarixi xidmətləri haqqında danışanda deyirdi: "Heydər Əliyev öz ölkəsinin və xalqının vətənpərvəri, Azərbaycanda qan tökülməsinə son qoymuş, müstəqil Azərbaycanın əsasını yaratmış qeyri-adi, böyük insan idi". Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində Azərbaycan bu gün beynəlxalq birliyin nüfuzlu üzvü kimi etibarını gücləndirməkdə davam edir. Heydər Əliyev həm də Azərbaycanın bugünkü uğurlu və tarazlaşdırılmış xarici siyasətinin memarıdır. Heydər Əliyev türk dövlətlərinin inteqrasiyasına önəm verirdi. O, türkdilli dövlətlərin başçılarının 1998-ci ildə Astanada keçirilən beşinci Zirvə toplantısının əhəmiyyətini xüsusi qiymətləndirirdi.

Milli Məclisin deputatı, Azərbaycan-Qazaxıstan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü **Nizami Cəfərov** bildirib ki, ulu öndər Heydər Əliyev haqqında qazax dilində bu kitabın təqdimatı tarixi hadisədir. Ulu öndər Heydər Əliyevin və Prezident Nursultan Nazarbayevin əsərləri onların qurduqları dövlətin, yürütdükləri siyasətin tarixi salnaməsidir. Azərbaycan və Qazaxıstan bu gün uğurla inkişaf edir. Bizim xalqlarımızın ortaq tarixi var. Böyük mədəniyyətimiz, zəngin adət-ənənələrimiz var. Qazax Xanlığının 550 illiyi Azərbaycanda qeyd edildi. Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi Qazaxıstanda qeyd olunur. Bu baxımdan, qardaş ölkələrimizdə yürüdülən siyasət, dövlət quruculuğu yenilik deyil, ata-babalarımızın müəyyənləşdirdiyi inkişaf yoludur ki, bu gün də uğurla davam etdirilir. Mən təqdimatına toplaşdığımız kitabın bir vacib cəhətini də qeyd etmək istəyirəm. Bu cür kitablar qardaş ölkələrimiz arasında dil mədəniyyətini və əlaqələrini zənginləşdirir. Məhz Qazaxıstan və Azərbaycan dilinin qarşılaşması türk dünyasının rəmzidir. Əminəm ki, belə layihələr davamlı olacaq.

Kitabda ölkə rəhbərlərinin, dünya şöhrətli siyasətçilərin, elm və mədəniyyət xadimlərinin xatirələri ilə yanaşı, bəzi səkillər də ilk dəfə dərc olunub.

Tədbir zamanı Heydər Əliyev haqqında sənədli film nümayiş etdirilib.

Qazaxıstan mətbuatının nümayəndələrinə müsahibə verən Prezidentin köməkçisi Əli Həsənov tədbirin işıqlandırılmasına görə onlara minnətdarlığını bildirib.

# Nazirlər Kabinetində dərman vasitələrinə nəzarətin gücləndirilməsi ilə bağlı iclas keçirilib



Mayın 16-da Nazirlər Kabinetində dərman vasitələrinin qeyri-qanuni dövriyyəsinə, keyfiyyətinə və təyinatı üzrə istifadəsinə nəzarət məsələləri ilə bağlı iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Əli Əhmədovun sədrlik etdiyi iclasda müvafiq dövlət qurumlarının rəhbərləri və nümayəndələri dərmanların idxalı və keyfiyyətinə dair müzakirələr aparıblar.

İclasda çıxış edən Baş nazirin müavini Əli Əhmədov dərman vasitələrinin dövlət tərəfindən qiymətlərinin tənzimlənməsi haqqında Azərbaycan hökumətinin qərarının olduğunu və bunun vətəndaşların sağlamlığına xidmət etdiyini bildirib. Qeyd edib ki, ölkəmizdə dərman vasitələri dövlət tərəfindən tənzimlənən qiymətlərlə satılır və Azərbaycan vətəndaşları bunu yüksək qiymətləndirir. Bunun nəticəsidir ki, bir neçə gün əvvəl saxta dərman satışı ilə məşğul olan bir qrup şəxs ifşa edilib.

Əhalinin sağlamlığının qorunması istiqamətində görülən işlərdən danışan Əli Əhmədov deyib ki, Prezident İlham Əliyevin səhiyyəyə göstərdiyi xüsusi diqqət bu sahədə xeyli irəliləyişə səbəb olub. Dövlət başçısının müəyyən etdiyi proqramlar tibb müəssisələrinin təmir və bərpasını, onların ən müasir avadanlıqla təchiz olunmasını, eləcə də vətəndaşlara pulsuz dərman vasitələrinin və preparatların verilməsini təmin edib. Artıq ölkəmizdə orta ömür müddəti uzanıb, yaşlı insanların sayı çoxalıb. Buna baxmayaraq, dərman bazarlarına keyfiyyətsiz məhsulların daxil olması barədə məlumatların olduğunu deyən Baş nazirin müavini vurğulayıb ki, Azərbaycanda saxta dərman satışına qarşı mübarizə qətiyyətlə davam edəcək.

Əli Əhmədov bildirib ki, dünyada saxta dərman problemi geniş yayılıb və buna qarşı mübarizə aparılır. Eyni zamanda Azərbaycanda da saxta dərman satışına qarşı ciddi mübarizə tədbirləri görülür.

Baş nazirin müavini dərman istehsalı və satışı ilə məşğul olan müəssisələrin fəaliyyəti üçün Azərbaycan hökuməti tərəfindən yaradılan şəraitdən danışıb və bundan sonra da onlara hər zaman kömək olunacağını diqqətə çatdırıb.

Tədbirdə ölkəmizin dərman bazarında keyfiyyətsiz və qeydiyyatdan keçməyən preparatların mövcud olduğu bildirilib və bu cür mənfi hallara qarşı ciddi mübarizə tədbirləri görməyin vacibliyi vurğulanıb.

Sonda aparılan müzakirələrin nəticəsi olaraq dərman bazarında mənfi hallara qarşı ciddi mübarizə tədbirlərinin görülməsi ilə bağlı təkliflərin hazırlanması üçün işçi qrupun yaradılması qərara alınıb.

# Olimpiada qalibləri mükafatlandırıldı

Bu günlərdə Respublika fənn olimpiadaları qaliblərinin mükafatlandırılması mərasimi keçirilib. Tədbirdə təhsil naziri Ceyhun Bayramov, Milli Məclisin deputatları, bir sıra dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının və təhsil müəssisələrinin rəhbərləri, tanınmış ziyalılar, münsiflər heyətinin sədrləri və üzvləri, olimpiada qalibləri, təhsil ictimaiyyətinin nümayəndələri iştirak ediblər.






Təhsil İnstitutunun direktoru vəzifəsini icra edən Emin Əmrullayev Respublika fənn olimpiadalarının nəticələri barədə geniş məlumat verib. Bildirib ki, olimpiadada 45 nəfər qızıl, 89 nəfər gümüş, 142 şagird isə bürünc medala layiq görülüb. Naxçıvan MR da daxil olmaqla 298 nəfər qalib elan edilib.

Qalibləri təbrik edən təhsil naziri Ceyhun Bayramov fənn olimpiadalarının mühüm əhəmiyyət kəsb etdiyini xüsusi vurğulayıb və qeyd edib ki, təhsilin keyfiyyətinin vacib amili kimi bu sahə ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir.

Respublika fənn olimpiadaları Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat, fizika, kimya, biologiya, informatika, coğrafiya və tarix olmaqla, 8 fənn üzrə IX, X və XI sinif şagirdlərinin arasında keçirilib. Yarışda IX siniflərlə bərabər xüsusi istedadı və hazırlığı ilə seçilən VII-VIII sinif şagirdləri də öz bilik və bacarıqlarını nümayiş etdiriblər.

Təhsil naziri 33 mindən çox şagirdin iştirak etdiyi Respublika fənn olimpiadalarının artıq adi yarış deyil, elm və bilik hərəkatına çevrildiyini vurğulayıb. Qeyd edib ki, bu il olimpiadalarda əldə edilən 298 medalın 157-si Bakı, 141-i isə digər bölgələrin payına düşür. Ümumilikdə 50 müxtəlif bölgədə təhsil alan şagirdlər olimpiadanın qalibləri sırasına daxil olub.

Beynəlxalq olimpiadalarda nəticələrin ildən-ilə yaxşılaşdığını və qısa müddətdə böyük nailiyyətlərin əldə edildiyini xüsusi vurğulayan nazir onu da bildirib ki, məktəblilərimiz 1994-cü ildən beynəlxalq olimpiadalarda 314 medal qazanıblar. Son 5 ildə isə onlar 3 qızıl, 21 gümüş və 85 bürünc medal olmaqla ümumilikdə 109 medal əldə ediblər. Bu da müstəqillik dövründə qazanılmış bütün medalların təxminən 3 faizi deməkdir.

Tədbirdə diqqətə çatdırılıb ki, beynəlxalq olimpiada qaliblərinin istənilən ixtisas üzrə, Respublika fənn olimpiadaları qaliblərinin isə müvafiq fənlərə uyğun ixtisaslar üzrə ali məktəblərə müsabiqədənkənar qəbul edilməsinə dair qanunvericilikdə müəyyən dəyişiklik təklifi Təhsil Nazirliyi tərəfindən aidiyyəti qurumlara göndərilib və məsələ razılaşdırılma mərhələsindədir.

Sonra Respublika fənn olimpiadaları iştirakçılarının və vaxtilə olimpiadalarda iştirak edən, hazırda dünyanın müxtəlif ölkələrində elmi fəaliyyətlə məşğul olan həmyerlilərimizin fikir və təbriklərinin yer aldığı videoçarx nümayiş olunub.

Azərbaycan dili və ədəbiyyat fənni üzrə qızıl medalın sahibi, Bakı şəhəri Texniki-humanitar liseyin 11-ci sinif şagirdi Zeynəb Quluzadə qazandığı uğurlarla bağlı fikirlərini bölüşüb.

Tədbirin sonunda olimpiada qaliblərinə mükafatlar təqdim edilib.

***"Azərbaycan"***

# Ədliyyə naziri Salyanda vətəndaşları qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq, Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, mayın 16-da ədliyyə naziri Fikrət Məmmədov Salyan rayonundakı Heydər Əliyev Mərkəzində Salyan, Neftçala və Hacıqabul rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerində həllini tapıb. Digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şəraitin yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli ədliyyə və məhkəmə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, ədliyyə işçiləri və hakimlərlə müşavirə keçirib.

# Səməd SEYİDOV: "AŞ PA-nın son qərarı Azərbaycana qarşı ikili standartların bariz nümunəsidir"

Azərbaycan Avropa Şurasının müxtəlif strukturları ilə əməkdaşlıq edir. Lakin bu, o demək deyil ki, Avropa Şurasının həmin strukturlarında ölkəmizə qarşı qərəzli mövqe yoxdur. Mayın 15-də Avropa Şurası Parlament Assambleyasında (AŞ PA) qəbul edilən qərar da bu ikili standartların bariz nümunəsidir.



AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov təşkilatın Assambleyanın bəzi üzvlərinə, o cümlədən Azərbaycan nümayəndə heyətinin rəhbərinə qarşı sanksiyalar tətbiq etməsi ilə bağlı mayın 16-da keçirdiyi mətbuat konfransında söyləyib.

Səməd Seyidov bildirib ki, Avropa Şurasında sağlam qüvvələr olsa da, Azərbaycana qarşı olan qüvvələr, erməni lobbisi ölkəmizlə bağlı qərəzli mövqe nümayiş etdirirlər. Lakin həmin qüvvələr Azərbaycanın Avropa Şurasındakı fəaliyyətinə təsir göstərə bilməyəcəklər. Ermənistan və onun ətrafında olan qüvvələr beynəlxalq arenada Azərbaycana uduzduqları üçün başqa taktika seçirlər. Azərbaycan nümayəndə heyəti AŞ PA-da hər zaman Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsini qaldırır, Ermənistanın işğalçılıq siyasətini gündəmə gətirir, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq qanunlar çərçivəsində həll olunmasının vacibliyini vurğulayır. AŞ PA-da sanksiya tətbiq olunan insanlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsini qaldıran şəxslərdir. Bu qərəzli addımlar bizim işimizə mənfi təsir göstərməyəcək. Bu, sadəcə, həmin qurumda böhranın, ikili standartların olduğunu göstərir. Azərbaycanın Avropa Şurası ilə çox yaxşı münasibətləri var, ancaq bunu gözü götürməyən qüvvələr ölkəmizi bu yoldan çəkindirmək istəyirlər. Lakin heç kim düşünməsin ki, biz bu meydanı tərk edəcəyik.

S.Seyidov deyib ki, Azərbaycan nümayəndə heyəti rəhbərinin adı bu siyahıya qərəzli şəkildə salınıb. Bu qərəzli sanksiya bizim söz demək imkanlarımıza, hansısa sənədlərin hazırlanmasına heç bir məhdudiyyət yarada bilməz. Bu, Azərbaycanın qurumda normal fəaliyyətinə, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılmasına heç bir əngəl yaratmayacaq. Azərbaycan AŞ PA-da fəaliyyətini davam etdirəcək.

# Los-Ancelesdə Azərbaycan tolerantlığına həsr olunmuş tədbir keçirilib

## *Azərbaycanın dinlərarası harmoniya modeli böyük rəğbətlə qarşılanıb*

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi, Azərbaycanda yaşayan müxtəlif dini icmaların başçılarından ibarət nümayəndə heyətinin ABŞ-ın Kaliforniya ştatına səfəri çərçivəsində ABŞ yəhudilərinin ən nüfuzlu dini mərkəzlərindən olan, Los- Ancelesdə fəaliyyət göstərən Sinay Sinaqoqunda Azərbaycanın multikulturalizm və dini tolerantlıq ənənələrinə həsr olunmuş geniş tədbir keçirilib. Bu barədə AZƏRTAC-a Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan məlumat verilib.





Baş konsulluğun və Amerika Yəhudi Komitəsinin birgə təşkilatçılığı ilə keçirilmiş tədbirdə 300-dək qonaq, o cümlədən xarici ölkələrin Los- Ancelesdə akkreditə olunmuş baş konsulları, yerli yəhudi icmasının nüfuzlu təmsilçiləri, müxtəlif dinləri təmsil edən din xadimləri, seçkili orqanların üzvləri, eləcə də bir çox icmaların nümayəndələri, ictimai-siyasi xadimlər və jurnalistlər iştirak ediblər.

Tədbirin açılışında Sinay Sinaqoqunun kantoru Liza Peykot tərəfindən Azərbaycan himninin ifası rəğbətlə qarşılanıb.

Sinaqoqun ravvini Erez Şerman belə bir əlamətdar tədbirə evsahibliyi etməkdən məmnunluq duyduqlarını ifadə edib. O, 2015-ci ildə sinaqoqun böyük nümayəndə heyətinin Azərbaycana səfərini qeyd edərək Azərbaycandakı dinlərarası tolerantlığın bütün qonaqlara yüksək təsir bağışladığını vurğulayıb.

Sonra çıxış edən Amerika Yəhudi Komitəsinin (AYK) Los-Anceles nümayəndəliyinin sədri Skot Edelman Azərbaycanın bütün müsəlman dünyasında oynadığı nümunəvi rolu xüsusi vurğulayaraq AYK ilə Azərbaycan arasında qurulmuş sıx dostluq əlaqələrinə yüksək önəm verdiklərini bildirib. S.Edelman ölkəmizdə müxtəlif dinlərin və xalqların dinc birgəyaşayışının, eləcə də uzun əsrlərdən bəri Azərbaycanda mövcud olan yəhudi icmasına göstərilən münasibətin yüksək səviyyədə olmasının Amerika yəhudiləri arasında böyük rəğbət doğurduğunu vurğulayıb. Natiq Azərbaycanın tolerantlıq modelinin bu gün Los-Ancelesdə Sinay Sinaqoqu və Azərbaycanın baş konsulluğu ilə birgə təqdim olunması kimi gözəl bir layihədəki rolundan AYK-nın şərəf duyduğunu bildirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı tədbirdə çıxış edərək tolerantlığın ölkəmizdə çox möhkəm təməl sütunlarının, zəngin ənənələrinin mövcud olduğunu qeyd edib. 31-i qeyri-islam olmaqla, 809 dini icmanın dövlət qeydiyyatına alındığını vurğulayan M.Qurbanlı ölkəmizdə İslam dini ilə yanaşı, digər dinlərə mənsub insanların qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşadıqlarını diqqətə çatdırıb. O bildirib ki, məhz bu ənənələrin daha geniş təbliği üçün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2016-cı il ölkəmizdə "Multikulturalizm ili", 2017-ci il isə "İslam həmrəyliyi ili" elan edilib və bu illər çərçivəsində DQİDK və Qafqaz Müsəlmanları İdarəsi həm müsəlman, həm də qeyri-müsəlman ölkələrində bir sıra birgə tədbirlər həyata keçirib. DQİDK sədri xüsusilə bu istiqamətdə Heydər Əliyev Fondunun həyata keçirdiyi çoxşaxəli və geniş proqramlardan söz açıb. Qeyd edib ki, bu proses bu il də davam etdirilir. Belə ki, xüsusi olaraq Dinlər və Mədəniyyətlərarası Əməkdaşlıq Mərkəzi yaradılıb və bu mərkəz vasitəsilə qarşıdakı müddətdə Almaniya, İspaniya və Azərbaycanda müvafiq tədbirlər keçiriləcək.

Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev çıxışında ölkəmizdə mövcud olan zəngin tolerantlıq irsindən bəhs edərək qədim dövrlərdən bəri Azərbaycanda bütün xalqlar və dinlər arasında mehriban qardaşlıq əlaqələrinin hökm sürdüyünü qeyd edib. Diplomat Sinay Sinaqoqu və Amerika Yəhudi Komitəsi ilə Los-Ancelesdə yaradılmış möhkəm dostluq münasibətlərinin ölkəmiz üçün yüksək önəm daşıdığını və bunun Azərbaycanın dinlərarası tolerantlıq modelinin ABŞ-da təbliği işinə yüksək töhfə verdiyini bildirib.

Sonra çıxış edən Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski, Alban-Udi Xristian dini icmasının sədri Robert Mobili və Rus Pravoslav Kilsəsinin Bakı Yeparxiyasının nümayəndəsi Elnur Əfəndiyev Azərbaycanın tarixi tolerantlıq və multikulturalizm ənənələrindən danışaraq bu ənənələrin artıq ölkəmizdə dövlət siyasəti səviyyəsinə yüksəldildiyini vurğulayıblar. Natiqlər Azərbaycanda uzun əsrlərdən bəri dini və etnik mənsubiyyətindən asılı olmayaraq hər kəsin sülh, qardaşlıq və əmin-amanlıq şəraitində birgə yaşadığını diqqətə çatdırıblar.

Sonra tədbir iştirakçıları və media nümayəndələrini maraqlandıran suallar cavablandırılıb. Müxtəlif media qurumlarını təmsil edən jurnalistlər Azərbaycan tolerantlığı barədə geniş bilgilər əldə ediblər.

Çıxışlardan sonra Azərbaycanın multikulturalizm ənənələrindən bəhs edən, DQİDK tərəfindən çəkilmiş qısa film nümayiş etdirilib. Los-Ancelesdə fəaliyyət göstərən pianoçu Ceyson Abramsın ifasında Azərbaycan musiqisi təqdim olunub.

Sonda tədbir iştirakçıları Azərbaycanın multikulturalizm və tolerantlıq ənənələrinə həsr olunmuş fotosərgi ilə tanış olublar.

# Dini radikalizm və ekstremizmə qarşı mübarizə mövzusunda seminar

Dövlət Sərhəd Xidməti ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə tədbirlər planına uyğun olaraq Göytəpə Sərhəd Dəstəsinin qarnizonunda "Dini radikalizm və ekstremizmə qarşı mübarizə: mənəvi və hüquqi müstəvidə" mövzusunda seminar keçirilmişdir.



DSX-dən verilən məlumata görə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərovun iştirakı ilə keçirilən seminarda dini radikalizmin törətdiyi fəsadlar geniş izah olunmuş, bəzi qüvvələrin din pərdəsi altında ölkəmizin ictimai-siyasi sabitliyinə, dövlətimizin hüquqi-demokratik əsaslarına qarşı yönəldilmiş pozuculuq fəaliyyətləri, vətəndaşlarımızı xarici dini ekstremist qrupların və onların silahlı dəstələrinin tərkibinə qoşmaq cəhdləri qətiyyətlə pislənmiş, bu cür əməllər törətməyə cəhd edənlərə qarşı dövlət qurumları tərəfindən görülən tədbirlər haqqında ətraflı məlumat verilmişdir.

Seminarda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət sayəsində ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanların mehriban və qarşılıqlı hörmət şəraitində yaşadıqları, respublikamızın tolerantlıq və multikulturalizm nümunəsinə çevrildiyi xüsusi qeyd olunmuşdur.

Seminarda dini amillərdən yararlanaraq radikallığa cəhd göstərən qüvvələrə qarşı mübarizədə hamının, xüsusən gənc nəslin sayıqlıq göstərməsinin zəruriliyi vurğulanmışdır.

Sonda dini radikalizmin törətdiyi fəsadlardan bəhs edən "Şəhadət" sənədli filmi göstərilmişdir.

*"Azərbaycan"*

# Ədalətsizlik

## *Siyasi sifarişlər yerinə yetirən AŞ PA antiazərbaycançı dairələrin növbəti çirkli planlarını icra edir*

Müstəqil geosiyasi və geoiqtisadi təşəbbüsləri nəticəsində regionun lokomotivinə çevrilən Azərbaycan həm də beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi qəbul olunur. Azərbaycan diplomatiyası regional əməkdaşlıq, enerji təhlükəsizliyi, habelə beynəlxalq təşkilatlarda təmsilçilik kimi məsələlərdə milli maraqların prioritetliyini maksimum səviyyədə təmin edir, bölgədə müşahidə olunan neqativ geosiyasi dəyişiklik meyillərinə rasional və təmkinli münasibət göstərir.

Bu göstəricilər və Azərbaycanın getdikcə artan nüfuzu bəzi xarici qüvvələri, təşkilatları daim narahat edir, ölkəmizə qarşı bəzi beynəlxalq təşkilatların rəftarı nədənsə təzyiq-təhdid formasına çevrilir.

### Məkrli planlar da dəyişib, istiqamət də...

Əlbəttə ki, bütün bunlar antiazərbaycançı şəbəkənin illərlə hazırladığı məkrli planların tərkib hissəsidir. Son zamanlar isə Qərbdəki bəzi dairələr öz eybəcərliklərini Azərbaycan nümunəsində qabartmağa və onu növbəti dəfə ittiham hədəfinə çevirməyə çalışırlar.

Bu bir həqiqətdir ki, əvvəllər bu qüvvələr Azərbaycana qarşı qarayaxma kampaniyalarını "Amnesty International", "Human Rights Watch" və "Freedom House" kimi ermənipərəst, riyakar, fəaliyyətini çirkli pullar hesabına quran beynəlxalq "hüquq müdafiə təşkilatları" və daxildəki "beşinci kolon"un vasitəsi ilə həyata keçirməyə çalışırdılar. Lakin hər dəfə Azərbaycanın layiqli müqaviməti və tutarlı arqumentlərə əsaslanan cavabları ilə planları alt-üst olurdu. Məhz bu təşkilatlara və "sapı özümüzdən olan baltalar"a bəslənən "ümidlər" puç olduğu üçün antiazərbaycançı şəbəkənin məkrli planlar üçün ayırdığı çirkin pulların istiqaməti, ünvanı dəyişdi.

### Avropa İttifaqı çirkli oyunlara yox, yeni strateji əməkdaşlığa üstünlük verdi

Belə ki, antiazərbaycançı şəbəkə çirkin əməllərini ölkəmizin üzvü olduğu beynəlxalq təşkilatlar vasitəsi ilə həyata keçirməyə başladı və bu, mütəmadi xarakter almağa başladı. Lakin Azərbaycan bütün məkrli planları alt-üst etdi, qərəzli qətnamələrə layiqli cavablar verildi. Hətta bəzi qurumlar ölkəmizə qarşı sərgilədiyi xoşagəlməz mövqeyə görə təəssüfləndi və daha yaxın münasibətlərin qurulması üçün yeni təkliflərlə çıxış etdi.

Bunlardan biri kimi Avropa İttifaqını göstərə bilərik. Əvvəlcə Avropa Parlamenti Azərbaycana qarşı qərəzli mövqe sərgiləməyə başladı və nəticəsi də bu oldu ki, Azərbaycan bu qurumla ikitərəfli əlaqələrə xitam verdi. Ölkəmiz Avronest PA-da fəaliyyətini dayandırdı.

Prezidenti İlham Əliyev Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin nümayəndə heyəti ilə görüşdə sərt fikirlər səsləndirərək ölkəmizin mövqeyini ortaya qoydu və bununla həmçinin antiazərbaycançı şəbəkəyə yetərli siqnal verdi. Dövlət başçısı bir daha Azərbaycanla təzyiq-təhdid dili ilə danışmağın qeyri-mümkünlüyünü bəyan etdi.

Bir müddətdən sonra Avropa İttifaqı əlaqələri bərpa etmək üçün təkliflə çıxış etdi və münasibətlərin daha yüksək səviyyəyə qaldırılması üçün yeni ikitərəfli saziş təklifi irəli sürdü.

Prezident İlham Əliyevin ötən il Brüsselə səfəri zamanı isə Azərbaycan və Avropa İttifaqı arasında əməkdaşlığın genişləndirilməsi baxımından olduqca vacib görüşlər keçirildi. Beləliklə, tərəflər arasında münasibətlərin demək olar ki, yeni mərhələsi başlandı. Yaxın zamanlarda yeni strateji sazişin imzalanması ilə əlaqələr daha da möhkəmlənəcək.

### Antiazərbaycançı şəbəkənin girovuna çevrilən AŞ PA

2018-ci ilə ciddi uğurlarla başlayan və çox mühüm siyasi, iqtisadi islahatlar aparan Azərbaycan rəhbərliyinin ünvanına bu dəfə də iftira, böhtan dolu fikirlər uydurmağa çalışanlar tapıldı. Təəssüf ki, AŞ PA kimi qurum da onların əsirliyinə düşdü.

Etiraf edək ki, Azərbaycan daim başqa beynəlxalq təşkilatlar olduğu kimi, AŞ PA-ya da böyük hörmət və nəzakətlə yanaşıb. Bu təşkilatın işində fəal iştirak edib, proqramlarına diqqət göstərib, tövsiyələrini nəzərə alıb. Lakin bunun fonunda AŞ PA Azərbaycana qarşı dəfələrlə qərəzli mövqe nümayiş etdirib.

Bu qurumun son illərdə ölkəmizə qarşı apardığı bir neçə çirkin kampaniyaya nəzər yetirək. Ötən il qurumun payız sessiyasında "Azərbaycanda demokratik təsisatların fəaliyyəti" və "Azərbaycanın Avropa Şurasına sədrliyi dövründə insan haqlarına hörmət sahəsində atılan addımlar" mövzularında məruzələr qəbul edildi. Həmməruzəçilər Stefan Şennakın və Sezar Florin Predanın hazırladıqları və parlamentari Alen Desteksin təqdim etdiyi qərəzli hesabatlar üzrə iki qətnamənin qəbulu bir daha sübut etmiş oldu ki, Azərbaycana qarşı müharibə təkcə səngərlərdə deyil, informasiya sahəsində də aparılır. Çünki Azərbaycan Avropa Şurasına üzv olduğu 17 il ərzində nəhəng islahatlar həyata keçirib və keçirməyə də davam edir. Amma bunların heç biri nəzərə alınmır və davamlı olaraq ölkəmizə təzyiq göstərilir. O da bəlli oldu ki, AŞ PA-nın bəzi üzvləri Azərbaycanla "məşğul olmağı" gündəlik məşğuliyyətə çeviriblər.

Əlbəttə ki, öz milli maraqlarına uyğun müstəqil siyasət yürüdən və prinsipial mövqeyi ilə seçilən Azərbaycanın AŞ PA-da fəallığı bir çoxlarına sərf etmir. Əks təqdirdə, sözügedən parlamentarilər daha çox islamofobiya, ksenofobiya, irqi və dini ayrı-seçkiliyin baş alıb getdiyi, insan hüquqlarının, ifadə azadlığının kobud şəkildə pozulması hallarının artdığı Avropanın gələcəyi barədə düşünər və bu problemlərin aradan qaldırılması yollarını axtarardılar.

### AŞ PA artıq siyasi təzyiq vasitəsinə çevrilir

Ötən ay isə AŞ PA-da korrupsiya məsələsinə dair son hadisələr göstərdi ki, artıq bu təşkilat da siyasi sifarişlər yerinə yetirməyə başlayıb. Yəni AŞ PA-nı artıq azadlıq, demokratiya və ədalət idarə etmir. Azərbaycana qarşı ardıcıl şəkildə hücumlar bu təşkilatın siyasi təzyiq vasitəsinə çevrildiyini açıq şəkildə nümayiş etdirir.

Bu gün demokratiya yolu ilə inkişaf edən, Avropa İttifaqı ilə strateji tərəfdaşlıq haqqında saziş imzalamağa hazırlaşan Azərbaycanın süni şəkildə sıxışdırılması bir daha göstərir ki, AŞ PA müəyyən məqsədli dairələrin məkrli planlarını icra etməklə məşğuldur.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidova qarşı qərəzli münasibət isə onu göstərir ki, AŞ PA-da ölkəmizə qarşı ikili standartlar siyasəti davam edir. Qurumun qərəzli qərarları, hesabatları antiazərbaycançı dairələrin mənafeyinə xidmət edir və Azərbaycana qarşı təzyiq məqsədi güdür.

Hətta bunu bəzi avropalı siyasətçilər də etiraf edirlər. Ötən il Azərbaycana qarşı qərəzli qətnamə qəbul edilərkən alman politoloq Aleksandr Rar AŞ PA-nı Qərbin inkvizisiyası adlandırmışdı. Siyasi sarkazmla bu təşkilatın proseslərə müdaxilə etmək, eyni zamanda üzv dövlətlərin daxili siyasətinə qarışmaq hüququ olduğunu bildirərək demişdi ki, belə vəziyyət Avropa üçün xarakterikdir və bu, getdikcə intensivləşəcək.

Bu fikirlər həqiqətən AŞ PA-nın Azərbaycanla bağlı həyata keçirdiyi "məqsədyönlü siyasətinin" əsl məğzini aşkara çıxarır - təzyiq, təhdid və süni şəkildə sıxışdırmaq.

### 17 illik üzvlüyü dövründə AŞ PA Azərbaycana nə verib?

Hazırlanan qərəzli hesabatlardan, siyasi sifarişlərdən görünür ki, məqsəd problemləri aradan qaldırmaq deyil, üzv dövlətləri qaralamaqdır. Görünən odur ki, son vaxtlar nüfuzuna xələl gətirməyə başlayan AŞ PA artıq qlobal və regional proseslərdə geosiyasi təzyiq aləti funksiyasını yerinə yetirir.

AŞ PA qəbul etdiyi qərəzli sanksiyalar, hesabatlar Qərbin islamofob və ermənipərəst qruplarının növbəti oyunudur. Bir vaxtlar Kristofer Ştrasserin uydurduğu qondarma "siyasi məhbus" oyunu və bununla bağlı qurumda aparılan müzakirələr, indi isə bədnam "hesabatlar", sifarişli qərarlar təsdiq edir ki, Qərbdəki bəzi dairələr öz eybəcərliklərini Azərbaycan nümunəsində qabartmağa və onu növbəti dəfə ittiham hədəfinə çevirməyə çalışırlar.

Bütün bunlar onu deməyə əsas verir ki, belə cirkinliklərdən qurtulmaq üçün Azərbaycan AŞ PA-ya üzvlük məsələsini yenidən nəzərdən keçirməlidir. AŞ PA kimi ikili standartlar, qarayaxma və ləkələmə nümunəsinin tüğyan etdiyi bir təşkilat Azərbaycanın nəyinə lazımdır?

Əgər diqqət etsək görərik ki, 17 illik üzvlüyü dövründə AŞ PA Azərbaycana heç nə verməyib. Ümumiyyətlə, Qərbə inteqrasiya Azərbaycana ancaq ziyan verib. Ölkəmiz davamlı təzyiqlər, ikili standartlar, qarayaxma və ləkələmə kampaniyasına məruz qalıb. Onda beynəlxalq hüquq normalarının təmin edilməsi, Ermənistanın işğalçı siyasətinin aradan qaldırılması istiqamətində də heç bir təsirli addım atmayan AŞ PA-dan nə gözləmək olar?

### AŞ PA-sız da yaxşı yaşaya bilərik, yaşamışıq da

Hələ bir neçə il öncə Prezident İlham Əliyev Avropa Şurasına xəbərdarlıq da etmişdi. Dövlət başçısı Azərbaycana qarşı aparılan çirkin kampaniyaların dayandırılmasını tələb edirdi: "Azərbaycanı nə qədər təhqir etmək olar? Bizə nə qədər alçaltmaq cəhdləri göstərilə bilər? Artıq bizim hövsələmiz tükənib. Biz Avropa Şurasız da yaxşı yaşaya bilərik, yaşamışıq da. 2001-ci ilə qədər yaşamışıq. Yaşamışıq və ölməmişik. Biz oraya üzv olmuşuq ki, ilk növbədə Qarabağ problemi həll edilsin... Ancaq biz nəyi görürük: ədalətsizlik, ikili standartlar, islamofobiya, paxıllıq, bədniyyət. Ona görə yenə də bu mövzuya qayıdıram. Biz heç yerə inteqrasiya olmuruq. Hara olmuşuq, kifayətdir. Lazım olarsa, yenə də başqa birliklərə də üzv olarıq, ancaq bərabərhüquqlu tərəfdaş kimi, ləyaqətli ölkə kimi".

Əlbəttə ki, Azərbaycan ictimaiyyəti Avropa təsisatlarının özünə qarşı ədalətsiz mövqeyini heç vaxt qəbul etməyəcək. Çünki Prezident İlham Əliyevin milli maraqlara əsaslanan strategiyası ölkəmizin xarici siyasətinin təməl daşıdır. Rəsmi Bakı dəfələrlə sübut edib ki, heç kəs Azərbaycanla ultimatum dilində danışa bilməz. Əgər AŞ PA da belə qərəzli mövqe sərgiləməkdə davam edəcəksə, təbii ki, dövlətimiz bununla bağlı əsaslandırılmış qərarını verəcək. Çünki Azərbaycan özünü tam şəkildə təmin edən ölkədir. Heç kimdən asılı, heç kimin qarşısında gözükölgəli deyil, öz yolu ilə, müstəqillik, inkişaf yolu ilə gedir və bundan sonra da gedəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Məhkəmələrin qərarları ilə müsadirə olunmuş 892 kiloqramdan çox narkotik vasitə məhv edilib

Məhkəmələrin qərarları ilə müsadirə olunmuş 892 kiloqramdan artıq müxtəlif narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları mayın 16-da Binəqədi rayonundakı Bünyad Sərdarov adına maşınqayırma zavodunda məhv edilib.

AZƏRTAC xəbər verir ki, narkotiklərin məhv olunması prosesində Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının, Daxili İşlər Nazirliyinin və Dövlət Təhlükəsizliyi Xidmətinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Sərhəd Xidmətinin əməkdaşları və KİV nümayəndələri iştirak ediblər.

Dövlət komissiyasının işçi qrupunun rəhbəri Fəqan Şahverdiyev deyib ki, bu gün 388 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı çıxarılan 892 kiloqramdan çox müxtəlif növ narkotik vasitə və psixotrop maddə (468 kiloqram 658,155 qram marixuana, 217 kiloqram 96,701 qram heroin, 183 kiloqram 25,135 qram tiryək, 22 kiloqram 848,734 qram həşiş qətranı, 18 min 462 ədəd psixotrop maddə və 6453 ədəd çətənə bitkisi) yandırılaraq məhv edilib. Müsadirə olunan müxtəlif növ narkotik vasitələrin və psixotrop maddələrin qara bazarda ümumi dəyəri 16 milyon manat təşkil edir.

Qeyd edilib ki, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın icrasını daim diqqətdə saxlayan Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupu narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə sahəsində fəaliyyət göstərən aidiyyəti qurumların fəaliyyətini koordinasiya etməklə antinarkotik təbliğata xüsusi önəm verir. Həyata keçirilən tədbirlər nəticəsində müsbət nəticələr əldə olunub. Dövlət komissiyasının işçi qrupu şəhər-rayon komissiyaları ilə birgə profilaktik tədbirlər, konfranslar, seminarlar, praktik təlimlər həyata keçirir, bu istiqamətdə çalışan əməkdaşlara fəaliyyətin səmərəliliyini artırmaq üçün metodik tövsiyələr verir. Belə ki, narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslər arasında aparılan profilaktik tədbirlərin keyfiyyətinin və həmin tədbirləri icra edənlərin peşəkarlığının artırılması məqsədilə və narkomanlıqla mübarizə sahəsində maarifləndirmə tədbirlərinin aparılması məqsədilə təlimçilərin hazırlanması üçün dövlət komissiyasının işçi qrupu 2016-2017-ci illər ərzində respublikanın 50-dən çox şəhər və rayonunda seminar-müşavirələr keçirib, ümumilikdə 1700 təlimçi hazırlayıb.

Diqqətə çatdırılıb ki, 2018-ci ilin üç ayı ərzində narkotiklərlə mübarizə sahəsində hüquq mühafizə orqanları tərəfindən 887 fakt aşkarlanıb. Faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 519 kiloqram 631,681 qram müxtəlif növ narkotik vasitələr müsadirə olunub. Müsadirə edilən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının 263 kiloqram 197,362 qramı marixuana, 87 kiloqram 259,777 qramı tiryək, 135 kiloqram 722,762 qramı heroin, 27 kiloqram 467,44 qramı həşiş, 4 kiloqram 368, 229 qramı digərləri, 1 kiloqram 616, 111 qramı psixotrop maddələr və 4490 ədəd həb olub. Faktlarla əlaqədar 493 nəfər cinayət məsuliyyətinə cəlb edilib.

# Azərbaycan ilə Belarus arasında hərbi-texniki əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib

Mayın 16-da Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Belarus Respublikası Dövlət Hərbi-Sənaye Komitəsinin sədri, general-mayor Oleq Dviqalyovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ölkə arasında hərbi və hərbi-texniki sahədə birgə fəaliyyətin nəticələrindən məmnunluq ifadə edilib, bu sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb.

Söhbət zamanı Belarus hərbi-sənaye kompleksi müəssisələrinin istehsal etdiyi bütün qoşun növləri üçün nəzərdə tutulmuş müxtəlif təyinatlı hərbi məhsulların Azərbaycan Ordusunun silahlanmasına qəbul edilməsi müsbət qiymətləndirilib.

Tərəflər hərbi-texniki əməkdaşlıq məsələlərinin geniş spektrini müzakirə edərək Azərbaycan Ordusunun döyüş qabiliyyətinin daha da yüksəldilməsinə yönəlmiş yeni böyük layihələrin həyata keçirilməsi istiqamətlərini müəyyənləşdiriblər.

# Ukraynada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı poçt markası dövriyyəyə buraxılıb



Ukraynada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı poçt markası hazırlanıb. Bu barədə AZƏRTAC-a Azərbaycanın Ukraynadakı səfirliyinin müşaviri Vüsal Süleymanov məlumat verib.

Səfirlik tərəfindən hazırlanan 4 növ poçt markasında Azərbaycan Xalq Cümhuriyyətinin parlament binasının, iclasının, Şərqdə ilk dəfə qadınlara səsvermə hüququ verilən obrazın təsvirləri yer alıb. Poçt markalarında Azərbaycan Xalq Cümhuriyyəti dövrünün mövzusu geniş qeyd edilib.

Sayı 2000 ədəd olan poçt markaları artıq bu gündən dövriyyəyə buraxılıb.

# "Bakı-2018" II Beynəlxalq həmrəylik tennis çempionatına dair iclas keçirilib



Mayın 16-da Milli Olimpiya Komitəsində iyulda Bakının evsahibliyi edəcəyi II Beynəlxalq həmrəylik tennis çempionatına dair iclas keçirilib.

AZƏRTAC xəbər verir ki, çempionatda yerli Əməliyyat Komitəsinin üzvləri, Azərbaycan Tennis Federasiyasının nümayəndələri iştirak ediblər.

Tədbir çərçivəsində fəaliyyət planına nəzər salınıb, Milli Olimpiya Komitəsi və Azərbaycan Tennis Federasiyası arasında mütəşəkkil şəkildə tədbirə hazırlıq planı təsdiqlənib.

Çempionat zamanı tələb olunan nəqliyyat, qidalanma, yerləşmə və digər mühüm məqamlara toxunulub.

Xatırladaq ki, II Beynəlxalq həmrəylik tennis çempionatı iyulun 23-28-də keçiriləcək. Çempionat "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarının irsini davam etdirmək, İslam aləmində idmana marağı artırmaq məqsədini daşıyır.

# Əlahiddə Ümumqoşun Ordunun raket-artilleriya bölmələrinin döyüş atışlı taktiki təlimləri keçirilib

Təlimlərdə düşmənin qəfil hücumunun dəf edilməsi və müdafiənin əlverişli hədlər üzrə bərpası vəzifələri icra olunub.



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərdə bütün tapşırıqlar uğurla yerinə yetirilib və qarşıya qoyulmuş məqsədlərə nail olunub.

Tapşırıqların uğurla yerinə yetirilməsi bir daha göstərir ki, bu gün özünün yüksək döyüş qabiliyyəti ilə seçilən və müasir hərbi texnikalarla tam təchiz edilən Əlahiddə Ümumqoşun Ordu regiondankənar digər hərbi birləşmələrin köməyi olmadan müstəqil şəkildə istənilən döyüş əməliyyatlarının koordinasiyasını həyata keçirmək və qarşıya qoyulan bütün vəzifələri dəqiqliklə yerinə yetirmək imkanına malikdir.

# Bakı indi də dünyanın aparıcı liman şəhərləri sırasındadır

*Əvvəli 1-ci səh.*

Bakı limanı Yaşıl Liman və logistika mərkəzi kimi inkişaf edir, burada ən son texnologiya və ekoloji standartlar tətbiq olunur. Regional nəqliyyat qovşağı kimi yeni liman Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə yüklərin Çin və Mərkəzi Asiyadan Avropaya və əks istiqamətə daşınmasında aparıcı rol oynayır.

Elə həmin konfransda Avropa İttifaqının (Aİ) komissarı Yohannes Han Azərbaycanın Avropa və Asiyanı birləşdirmək istiqamətində çox mühüm mövqeyini vurğulayaraq dedi ki, Aİ Bakı limanına beynəlxalq logistika və ticarət qovşağı olması yolunda dəstəyini davam etdirəcək. Bunun üçün 1 milyard avrodan çox yatırım nəzərdə tutan uzunmüddətli investisiya planının həyata keçirilməsi artıq gündəlikdədir.

Xatırladaq ki, ötən əsrin 30-cu illərində tikilən Bakı Dəniz Ticarət Limanı günün tələblərinə cavab vermirdi. Odur ki, dövlət başçısının 2007-ci ildə imzaladığı müvafiq sərəncamla yeni limanın baş planı və layihəsi hazırlandı. Layihənin birinci mərhələsi çərçivəsində bərə və quru yük terminalları, konteyner sahəsi, giriş-çıxış kanalı, avtomobil və dəmir yolları, eləcə də digər qurğular, infrastruktur obyektləri və binaların tikintisinə başlanıldı. 2010-cu ilin noyabrında təməli qoyulan liman cəmi 4 il sonra fəaliyyətə başladı. İndi o, Xəzər dənizində ən böyük ticarət limanıdır. Liman Azərbaycanın nəqliyyat, logistika mərkəzinə çevrilməsi üçün böyük imkanlar açır. Avtomobil və dəmir yollarının reabilitasiyası, tikintisi, dəniz nəqliyyatı, gəmiqayırma zavodu, ticarət limanı, yük aviasiyasının inkişafı bu prosesi sürətlə başa çatdırmağa imkan verir. Ən vacib cəhətlərdən biri Ələt Azad İqtisadi Zonasının Azərbaycanı regionun nəqliyyat və logistika mərkəzinə çevirməsidir. Bu zona yeni Bakı limanının Avropa, Yaxın Şərq, Mərkəzi Asiya, Türkiyə, Çin, Rusiya, İran kimi ölkələr üçün rolunu artırır.

Konfrans çərçivəsində "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC dostluq və əməkdaşlıq barədə dörd anlaşma memorandumu da imzaladı. Bundan əlavə, konfransdakı müzakirələrdə Bakı Ticarət Limanının coğrafi mövqeyinin unikal imkanları araşdırıldı, onun regional perspektivlərindən danışıldı.

Onu da qeyd edək ki, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-nin evsahibliyi etdiyi Dünya Limanlar Konfransına rekord sayda nümayəndə heyəti qatılmışdı. ABŞ, Rusiya, Çin, Hindistan, İndoneziya, Filippin, Yaponiya, Almaniya, Fransa, İspaniya daxil olmaqla dünyanın 65 ölkəsindən beynəlxalq limanların, biznes icmasının, gəmiçilik və logistika üzrə iri şirkətlərin 400-dən çox nümayəndəsi Bakı konfransında iştirak etmişlər.

Məlumat üçün bildirək ki, Mənzil Qərargahı Tokioda olan Dünya Limanlar Konfransı (IAPH) 90 ölkənin təqribən 180 limanını və limanlarla əlaqəsi olan 140 müəssisəsini təmsil edir. Təşkilatın üzvləri dünya dəniz ticarətinin 60 faizindən çoxunu həyata keçirir, beynəlxalq konteyner marşrutlarının 80 faizinə nəzarət edirlər. Qurumun illik konfransları 2013-cü ildə Los-Anceles, 2014-cü ildə Sidney, 2015-ci ildə Hamburq, 2016-cı ildə Panama və 2017-ci ildə Bali kimi böyük liman şəhərlərində keçirilib.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

# Qəsəbə Bələdiyyələri Milli Assosiasiyası üzvlərinin ümumi yığıncağı olub

Milli Assosiasiyaların "Bir bələdiyyə - azı bir layihə" təşəbbüsü çərçivəsində 2017-ci ildə ölkənin 141 qəsəbə bələdiyyəsi tərəfindən 19 istiqamətdə 610 layihə üzrə 3 milyon 644 min 60 manatlıq layihələr icra olunub. Cari ildə isə 3 milyon 771 min 520 manat dəyərində 658 layihənin icrası nəzərdə tutulur ki, bu da 2017-ci illə müqayisədə 127 min 460 manat və ya 8 faiz daha çox layihənin icrası deməkdir.

AZƏRTAC xəbər verir ki, bu barədə mayın 16-da Azərbaycan Qəsəbə Bələdiyyələri Milli Assosiasiyası üzvlərinin Xırdalan şəhərində keçirilən ümumi yığıncağında danışılıb.

Yığıncaqda Prezident Administrasiyasının ərazi-təşkilat məsələləri şöbəsinin məsul işçiləri, Milli Məclisin Regional məsələlər komitəsinin üzvləri, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin, Azərbaycan Şəhər və Kənd Bələdiyyələrinin Milli Assosiasiyalarının, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə Milli Məclisin Regional məsələlər komitəsinin üzvləri Rüstəm Xəlilov və Kamran Bayramov, Prezident Administrasiyasının ərazi-təşkilat məsələləri şöbəsinin bələdiyyələrlə iş sektorunun müdiri Emin Eyvazov, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin rəisi Zahir Əlizadə, Azərbaycan Şəhər Bələdiyyələri Milli Assosiasiyasının sədri Təmraz Tağıyev və Azərbaycan Kənd Bələdiyyələri Milli Assosiasiyasının sədri Əli Mehdiyev Heydər Parkında ümummilli liderin abidəsini ziyarət edib, önünə tər güllər düzüblər.

Sonra Xırdalandakı Heydər Əliyev Mərkəzində Assosiasiyaya üzv olan qəsəbə bələdiyyələrindən və Naxçıvan Muxtar Respublikası Qəsəbə Bələdiyyələri Assosiasiyasından seçilmiş nümayəndələrin 2017-ci ildə fəaliyyəti haqqında hesabatı, nəzarət-təftiş komissiyasının hesabatı və Milli Assosiasiyasının 2018-ci il üçün büdcəsi müzakirə edilib.

Azərbaycan Qəsəbə Bələdiyyələrinin Milli Assosiasiyasının sədri Hümbət Hüseynov qurumun 2017-ci ildəki fəaliyyəti haqqında hesabat məruzəsini təqdim edib. Qeyd olunub ki, Milli Məclis, Ədliyyə Nazirliyinin Bələdiyyələrlə iş Mərkəzi, eləcə də ölkənin QHT sektoru ilə yaradılan qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri bələdiyyələrin müasir dövrün çağırışlarına daha operativ reaksiya verməsinə, daha yaxından inteqrasiya olunmasına, ərazidə prioritet sosial məsələlərin daha tez həllini tapmasına hesablanıb.

Məruzəçi qəsəbə bələdiyyələri üzrə yerli ödənişlərdən daxilolmaların təhlilinə nəzər salaraq bildirib ki, ödənişlərdən daxil olan illik maliyyə vəsaiti 2 milyon 179 min 357 manatdır. Bu da büdcə gəlirlərinin 28,2 faizini, vergi və ödənişlərdən daxilolmaların isə 32 faizini təşkil edir. 2017-ci il üzrə büdcə daxilolmalarında ən yüksək göstərici 751 min 52 manat olmaqla Binəqədi rayonunun M.Ə.Rəsulzadə bələdiyyəsində və 571 min 721 manat olmaqla Sabunçu rayonunun Bakıxanov bələdiyyəsində qeydə alınıb.

Sonra nəzarət-təftiş komissiyasının hesabatı dinlənilib.

Məruzələr ətrafında çıxışlarda hər iki məsələ barədə müzakirələr aparılıb. Qəsəbə Bələdiyyələri Assosiasiyasının hesabat dövründə işi qənaətbəxş hesab olunub, bələdiyyələrin fəaliyyətində mövcud problemlər və onların həlli yolları, bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi üçün təkliflər səsləndirilib.

Yığıncaqda özünüidarəetmə orqanlarının uğurlu fəaliyyəti ilə əlaqədar bir sıra mühüm məsələlər qaldırılıb.

Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinin sədri Zahir Əlizadə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrinin əhəmiyyətini qeyd edib. Bildirib ki, belə olan halda prioritet sosial məsələlər daha tez həllini tapar.

Milli Məclisin deputatları Rüstəm Xəlilov və Kamran Bayramov Azərbaycan Qəsəbə Bələdiyyələri Milli Assosiasiyasının fəaliyyətini qənaətbəxş qiymətləndiriblər. Bildirilib ki, Milli Məclisin regional məsələlər komitəsi Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzi, eləcə də ölkədəki QHT sektoru ilə qarşılıqlı faydalı əlaqələri davam etdirib, qanunvericilik bazası təkmilləşdirilib.

Prezident Administrasiyasının ərazi-təşkilat məsələləri şöbəsinin bələdiyyələrlə iş sektorunun müdiri Emin Eyvazov qəsəbə bələdiyyələrinin fəallığının artırılmasının vacibliyini vurğulayıb. O, qəsəbə bələdiyyələrinin sədrlərinə daha fəal olmağı, yeni təşəbbüslərlə çıxış etməyi tövsiyə edib.

Emin Eyvazov deyib ki, 2016-cı illə müqayisədə hesabat ilində yerli ödənişlərdən daxilolmalar 19,3 faiz artsa da, açıq məkanda reklamın yerləşdirilməsi və yayımına görə ödənişlər 7,5 faiz, nəqliyyat vasitələrinin daimi və ya müvəqqəti dayanacaqları üçün ödənişlər 1,7 faiz azalıb. Yerli vergi və ödənişlərin yığım səviyyəsində müsbət dinamika müşahidə olunur. Lakin buna baxmayaraq, bələdiyyələrin kifayət qədər maliyyə potensialı olduğu halda, yerli vergi və ödənişlər tam toplanılmır. O, vergi və ödənişlərin tam həcmdə yığılmasının təmin edilməsi üçün, ilk növbədə, bələdiyyələrdə vergi ödəyicilərinin, vergitutma və ödəniş obyektlərinin uçota alınmasının təmin edilməsinin vacibliyini qeyd edib.

Prezident Administrasiyasının təmsilçisi dövlət başçısının regionlarda keçirdiyi müşavirələrdə verdiyi tapşırıqların icrasında bələdiyyələrin də rolunun artırılmasının önəmini diqqətə çatdırıb. Bildirib ki, bu sahədə bütün bələdiyyələrin işində dönüş yaradılmalıdır.

Sonra Milli Assosiasiyasının 2018-ci il üçün büdcəsi haqqında məsələlər müzakirə edilib.

Sonda müzakirə olunan məsələlər barədə müvafiq qərarlar qəbul edilib.

# Gəlirli olduğu üçün barama və tütünçülüyə maraq artıb

*Əvvəli 1-ci səh.*

Bu il Qazax kümçüləri 5 ton barama təhvil verməyi qarşılarına məqsəd qoymuşlar. Bu istəyə nail olmaları üçün onlara hər cür şərait yaradılmışdır. Rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov da ipəkqurdu bəslənən kəndlərdə olur, kümçülərlə söhbət edərək onların arzu və istəklərini dinləyir, qaldırılan məsələlərin həlli üçün operativ tədbirlər görür. İqtisadi cəhətdən daha gəlirli sahələrdən hesab olunan tütünçülüyün inkişafına da Qazaxda önəm verilir. 2016-cı ildə cəmi 10 hektarda tütün yetişdirən rayon sakinləri keçən il bu rəqəmi 50 hektara çatdırmış, aqrotexniki tədbirləri vaxtında həyata keçirməklə 80 tondan çox məhsul götürmüşlər. Əldə etdikləri qazancdan razı qalan tütünçülər cari ildə əkin sahələrini daha 10 hektar artırmışlar. Həmin sahələr ilin əvvəlindən şumlanmış, Cəfərli kəndindəki istixanalarda kifayət qədər tütün şitili yetişdirmişlər. Ümumiyyətlə, qazaxlı tütünçülər bu il keçən ilkindən daha çox məhsul götürmək üçün bütün aqrotexniki tədbirlərə ciddi əməl edirlər.

***Sabir ƏLİYEV, "Azərbaycan"***



## Azərbaycan Respublikası Təhsil Nazirliyi
## Lənkəran Dövlət Universiteti
## *açıq tenderə dəvət edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**
**Lot 1. Avadanlığın alınması**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Lənkəran şəhər, H.Aslanov xiyabanı - 50 ünvanından ala bilərlər.

**İştirak haqqı:**
**1-ci lot üzrə 400 (dörd yüz) manat**

**Əlaqələndirici şəxs: Quliyev Vaqif Şahvərən oğlu**
**Telefon: (025) 255 00 25**
**İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər.**
**Lənkəran Dövlət Universiteti**
**Hesab №: AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**Kapital Bank ASC Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H - AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK AIIBAZ2X**
**Ünvan: AZ 4200, Lənkəran şəhəri, H.Aslanov xiyabanı-50, Faks: (025) 255 27 86; www.lsu.edu.az:office@lsu.edu.az**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25 iyun 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 05 iyul 2018-ci il saat 17:00-a qədər Lənkəran şəhəri, Həzi Aslanov - 50 ünvanına, Lənkəran Dövlət Universitetinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 06 iyul 2018-ci il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***



# Cənubi Koreyanın Azərbaycandakı səfiri Astaraya səfər edib

Cənubi Koreyanın Azərbaycandakı səfiri Kim Çanqqyu cənub bölgəsinə səfəri çərçivəsində Astara rayonunda olmuşdur. Rayon icra hakimiyyətində keçirilən görüşdə RİH başçısı Qəzənfər Ağayev Astaranın tarixi, iqtisadiyyatı, sosial-iqtisadi inkişafı və turizm potensialı barədə qonağa ətraflı məlumat vermişdir.



Asiya-Avropa ölkələrini birləşdirən "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin istifadəyə verilməsi ilə ölkələr arasında iqtisadi və mədəni əlaqələrin daha da genişlənəcəyini qeyd edən tərəflər turizm və kənd təsərrüfatı sahələrində əməkdaşlığın faydalı olacağını vurğulamış, rayonun gələcək sosial-iqtisadi inkişafı üçün xarici investorlara yaradılan əlverişli şərait barədə fikir mübadiləsi aparmışlar.

Səfir müstəqillik qazandığı qısa müddət ərzində Azərbaycanın sürətli inkişafını yüksək qiymətləndirərək əlverişli coğrafi mövqeyə, zəngin təbii resurslara malik ölkənin bundan sonra daha da irəli gedəcəyinin şübhə doğurmadığını vurğulamışdır.

Qonaq qeyd etmişdir ki, Azərbaycanın cənub qapısı olan Astarada aparılan abadlıq işləri rayonun gözəlliyini daha da artırmışdır. Bir turizm məkanı kimi tarixi və təbiət abidələri ilə zəngin olan Astara subtropik və sitrus meyvə bağları, çay plantasiyaları ilə investorların marağını artırır.

Q.Ağayev qonağa rayonun inkişaf göstəriciləri haqqında geniş məlumat vermişdir. Bildirmişdir ki, ölkələrimiz arasında qurulan mədəni-iqtisadi əlaqələrin inkişafı, xalqlarımızın bir-birinə yaxınlaşmasına böyük fayda verir.

Səfir "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi olan Ələt-Astara-İran sərhədi avtomobil yoluna, Astara stansiyasından İran sərhədinə qədər olan dəmir yolu xəttinə və Astara çayı üzərində inşa edilən dəmir yolu körpüsünə baxmış, Xəzər dənizi sahilində salınmış və genişləndirilməkdə olan park-bulvar kompleksi, "Astaraçay" MMC-nin Çay emalı zavodu və rayonun füsunkar təbiəti ilə tanış olmuşdur.

***"Azərbaycan"***













# Ulu öndərin əbədiyaşar xatirəsinə böyük ehtiram

## *Heydər Əliyevin yubileyinə həsr olunmuş VI Zirvə Oyunları keçirildi*

Ulu öndər Heydər Əliyevin 95 illik yubileyi respublikamızın hər yerində böyük təntənə ilə qeyd edildi. Keçirilən müxtəlif səpkili tədbirlərdə ümummilli liderin xatirəsi ictimaiyyət tərəfindən yüksək ehtiramla anıldı.

Belə tədbirlərdən biri də Xırdalandakı AAAF Park Yaşayış Kompleksində keçirilən Heydər Əliyevin 95 illik yubileyinə həsr olunmuş VI Zirvə Oyunları idi. Qeyd edək ki, ulu öndərin xatirəsinə həsr olunan və "Zirvə" İnternational Sport Clubs-ın nəzdində müxtəlif idman növləri ilə məşğul olan idmançıların iştirak etdikləri Zirvə Oyunlarının keçirilməsi artıq ənənə halını alıb.







"Zirvə" idman klubunun təsisçisi, Olimpiya Oyunlarının iştirakçısı, Azərbaycan Ağır Atletika Federasiyasının birinci vitse-prezidenti Tofiq Heydərov qəzetmizə açıqlamasında bildirdi ki, VI Zirvə Oyunlarının keçirilməsində məqsəd ümummilli lider Heydər Əliyevin irsinin və ölkəmiz üçün gördüyü işlərin böyüməkdə olan gələcək nəsillərə çatdırılması, eyni zamanda, idmanın təbliği və inkişafı, idmançılar və məşqçilər arasında dostluq əlaqələrinin möhkəmləndirilməsi, onların ustalıq səviyyəsinin artırılması, təkmilləşdirilməsi, yarış vərdişlərinin mükəmməlləşdirilməsi, məşqçi-müəllimlərin işlərinin qiymətləndirilməsidir: "Ümummilli lider Heydər Əliyevin 25 il öncə ölkə rəhbərliyinə gəlişi ilə Azərbaycanın dövlət müstəqilliyi təhlükələrdən xilas oldu, ölkə həyatının bütün sahələri tənəzzüldən inkişafa qədəm qoydu. Məhz həmin vaxtdan idman sahəsində də yeni mərhələ başladı. İdmançılara, onların xarici yarışlarda iştirakına diqqət artırıldı. Atlanta Yay Olimpiya Oyunlarının iştirakçısı kimi o zaman yarışa hazırlaşanda və ondan sonra mənə ulu öndərlə görüşmək nəsib olmuşdu. Hər dəfə də görürdüm ki, Heydər Əliyev Azərbaycan idmanının inkişafı üçün əlindən gələni edir. Qürur hissi ilə deməliyəm ki, bu gün idmanda Heydər Əliyev siyasəti davam edir və əldə edilən hər bir uğur ümummilli liderin bu sahədə arzularının çin olmasıdır. VI Zirvə Oyunlarını keçirməklə biz bir daha Azərbaycan idmanını inkişaf yoluna çıxaran Heydər Əliyevin xatirəsini yad edirik".

VI Zirvə Oyunlarına idmanın 5 növü daxil edilmişdi - üzgüçülük, cüdo, karate, bədii gimnastika və ağır atletika. Yarışların keçirilməsi bu idman növləri üzrə fəaliyyət göstərən hakimlər heyətinə həvalə olunmuşdu. İlk olaraq mayın 5-dən başlayan oyunlar üzgüçülük və cüdo yarışları ilə start götürdü. Üzgüçülük yarışında 40-dan çox yeniyetmə qalib adı uğrunda mübarizə apardı, sonda fərqlənənlər diplom və medallarla təltif edildilər.





Daha sonra cüdo yarışları başladı. Açılış mərasimində yarışın baş hakimi Mail Hümbətov çıxış edərək "Zirvə" Beynəlxalq İdman Klubunun idmanın inkişafı üçün atdığı addımlardan danışdı, Oyunların cüdo idman növündə kütləviliyinin artmasına böyük təkan verildiyini qeyd etdi. Cüdo yarışında tatami üzərinə respublikamızın müxtəlif şəhər və rayonlarından 130-a qədər cüdoçu çıxmışdı. Yekunda qaliblərə diplom və medallar təqdim olundu.

Mayın 6-da AAAF Park Yaşayış Kompleksinin yarış zalında WKF karate yarışları keçirildi. Turnirdə 88 medal uğrunda 300 idmançı mübarizə apardı. Bu turnir açıq olduğundan ölkənin bir çox klublarının nümayəndələri tatami üzərinə çıxmışdılar. Rüstəm Əkbərovun rəhbərliyi altında "Zirvə" Beynəlxalq İdman Klubunun üzvləri 1 qızıl, 3 gümüş və 5 bürünc olmaqla 9 medal qazandılar.

Qeyd edək ki, yarışın qonaqları qismində Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov, qurumun hakimlər kollegiyasının sədri Cahangir Babayev, karate üzrə böyüklərdən ibarət yığma komandanın baş məşqçisi Şahin Xudaverdiyev və yığma komandanın bir çox üzvləri, dünya və Avropa çempionları iştirak edirdilər. Onlar təşkilatçılıqla bağlı razılıqlarını ifadə edərək görülən işlərə görə "Zirvə" idman klubunun rəhbərliyinə təşəkkürlərini bildirdilər.

Mayın 12-də isə bədii gimnastika yarışları keçirildi. Azərbaycan Gimnastika Federasiyası ilə birgə təşkil olunan bu yarış idman ictimaiyyətinin yetərincə böyük marağına səbəb oldu. Açıq birincilikdə yeniyetmə gimnast qızlar medallar uğrunda mübarizə apardılar.

Yarışda ümumilikdə 130 gimnast çıxış etdi. Onlar Bakı, Sumqayıt, Xırdalan, İsmayıllı, Göyçay, Kürdəmir şəhərlərini təmsil edirdilər. "Zirvə" Beynəlxalq İdman Klubunun təmsilçiləri Rəfiqə Əliyevanın rəhbərliyi altında yarışdılar.

Təntənəli açılış mərasimindən sonra yarışlar başladı. Müxtəlif musiqi nömrələrini nümayiş etdirən gimnastlar tamaşaçıların alqışlarına layiq görüldülər. Ayrı-ayrı yaş qruplarında alətsiz, ip, gürz, lent, top və halqa ilə çıxış edərək qələbə qazanan qızlar medal və diplomlarla təltif olundular. Yarışın qonaqları Azərbaycan Gimnastika Federasiyasının rəhbər şəxs və mütəxəssisləri iştirak edirdilər.

Ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş VI Zirvə Oyunlarında son olaraq ağır atletlər mübarizəyə qoşuldular. Mayın 13-də AAAF Parkın yarış zalında 4 yaş qrupunda 50-yə yaxın yeniyetmə atlet körpücük üzərinə çıxdı. Turnirə 2006-2008-ci il təvəllüdlü qızlar və oğlanlar qatılmışdılar. Hər yaş qrupu üzrə Sinkleyr cədvəli əsasında qaliblər müəyyən edildi. Maraqlı mübarizə şəraitində keçən yarış yüksək təşkilatçılıq səviyyəsi ilə yadda qaldı.

2006-cı ildən rəsmən fəaliyyətə başlayan "Zirvə" idman klubu Azərbaycan idmanında lider mövqedədir. İlk dəstəyini ümummilli lider Heydər Əliyevdən alan klub həm də müstəqil beynəlxalq statusa malikdir. Klubun adı da təsadüfi seçilməmişdir. Ulu öndər Heydər Əliyev idmançılarla görüşlərinin birində onlara xitabən "Mən sizləri həmişə zirvələrdə görmək istəyirəm" - demişdi. Klub yaradılarkən ulu öndərin sözlərinə istinad olunub və ad olaraq "Zirvə" seçilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Ciddi siqnal

# Bərdədə yaşıllıqları niyə ticarət obyektləri ilə əvəz edirlər?!

Anadan olmasının 95 illiyini el bayramı kimi qeyd etdiyimiz xalqımzın ümummilli lideri Heydər Əliyev özündən sonra bizim üçün son dərəcə qiymətli bir irs qoymuşdur. Ulu öndərin dahiliyi onda idi ki, o, həyatın bütün sahələrinə bacarıqla, elmi uzaqgörənliklə nüfuz edir, xalqa hər zaman doğru yol göstərirdi. Təbiətə, ətraf mühitə münasibətdə də Heydər Əliyevin mövqeyi insanlıq üçün bir örnək idi: Ulu öndər təbiətə əl qaldıranlara, yaşıllığa qıyanlara qarşı son dərəcə sərt və barışmaz idi. "Mən 1993-cü ildə Bakıya gələrkən, bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsilməsini görərkən, elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm ki, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir... İnsan qurmalıdır, yaratmalıdır... Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir. Ona görə də siz hər bir ağacı qorumalısınız, hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız..."

Ulu öndərin bu aydın və çox dəyərli tövsiyələri bütün zamanlar üçün aktualdır. Ədalət naminə demək lazımdır ki, bütün Qarabağın mərkəzi sayılan Bərdənin abadlığı üçün son illərdə xeyli diqqətəlayiq işlər görülmüşdür. Yaraşıqlı binaların tikilməsi, asfalt yolların çəkilməsi ilə yanaşı, yeni parklar inşa edilmiş, yaşıllıqlar əhəmiyyətli dərəcədə artırılmışdır. Dövlətin qayğısından güc alan bərdəlilərin doğma yurdun hər qarışını cənnətə döndərmək istəyi birmənalı olaraq alqışa layiqdir.

Son zamanlar Bərdə şəhəri ərazisindəki yaşıllıqlara kütləvi basqı isə hər kəsdə təəccüb və təəssüf doğurur! Bir zaman həvəslə əkilən, qayğı ilə becərilib böyüdülən ağaclar bir gecənin içində baltalanır, göz oxşayan, əsəblərə sığal çəkən, insanlara təmiz hava bəxş edən yaşıllıqlar amansızlıqla məhv edilir. Yerində yağışdan sonra çıxan göbələk kimi çoxsaylı mağazalar sıralanır. Kimsə fərqli prizmadan baxıb bunu sahibkarlığın inkişafına yaradılan şərait, göstərilən qayğı kimi qiymətləndirə bilər. Əslində, "yaşıl terror"u edənlərin istəyi, məramı başqadır. Orada nə dövlət maraqları yer alır, nə məmur məsuliyyəti, nə də vətəndaş mövqeyi!

Bu günlərin söhbətidir. Şəhərin S.Vurğun küçəsindən keçərkən gördüyümüz mənzərə bizi dayanmağa məcbur etdi. Günorta vaxtı 4-5 nəfər gənc yol kənarlarında, Tərtər çayının sağ sahilində bir neçə sıra əkilmiş həmişəyaşıl ağacları dartıb kökündən çıxarırdı. Ürək ağrıdan bir mənzərə idi. Gördüklərimizi telefonla çəkib yaddaşa köçürdük. Sonra tapşırığın kim tərəfindən verildiyi ilə maraqlandıq. Bərdə Rayon İcra Hakimiyyətinin işçisi Elçin müəllimin adını çəkdilər. Elçin Qurbanov icra hakimiyyətinin memarlıq şöbəsində çalışır. Gənclərə gördükləri bu işin cinayət olduğunu xatırladıb ayrılırdıq ki, Elçin müəllim özünü çatdırdı. "Yaşıllığı niyə məhv edirsiniz?" sualına aldığımız cavab belə oldu: "Biz icraçılarıq, tapşırıq yerinə yetiririk".

İxtiyar sahibləri başladıqları işi hazırda çox sürətlə davam etdirirlər. İndi həmin ərazidə ticarət obyektləri tikilir. Burada yaşıllıqdan əsər-əlamət belə qalmayıb. Amma təsəlli üçün şəkillər var.







Yaşıllıqlar belə yox edildi

Şəhərin Koroğlu küçəsində də eyni mənzərə göz dağlayır. Bir neçə il əvvəl rayonun idarə və müəssisələri, bütün əmək kollektivləri şəhərin abadlaşdırılması, yeni yaşıllıqlar salınması işinə səfərbər edilmişdi. Rayon gənclər və idman idarəsinin payına Koroğlu küçəsində dəmir yola paralel böyük bir ərazi düşmüşdü. Gənclər böyük əmək və xeyli vəsait sərf edərək həmin ərazini gözəl bir seyrəngaha, yaşıl bağçaya çevirmişdilər. İdarənin rəisi Anar Şahbazovun dedikləri:

- Bizə həvalə edilən ərazini doğma həyətimiz kimi sevirdik. Ora qiymətli ağaclar, çoxlu gül-çiçək, bəzək kolları əkmişdik. Ətraf evlərdə yaşayanlar axşamlar çıxıb orada dincəlirdilər. Hansısa bir sahibkarın yeni ticarət obyekti yaratmaq istəyi əlimizin zəhməti ilə, şəxsi vəsaitimiz hesabına yaratdığımız yaşıllığı məhv etdi. Etdiyimiz etirazlara məhəl qoyulmadı. İndi həmin ərazidə tikinti işləri aparılır.

Şəhərin Bakı küçəsində də oxşar mənzərələr diqqət çəkir. Maraqlıdır ki, son vaxtlar Bərdədə yaşıllıqların məhv edilməsi, ağacların kəsilməsi kütləvi xarakter almışdır. Getdikcə sürətlənən bu prosesi dayandırmaq üçün əlaqədar təşkilatlar nədənsə hərəkətə keçib zəruri tədbirlər görmürlər. Ətraf mühitin mühafizəsinə, yaşıllıqların qorunmasına nəzarət etməli olan dövlət qurumunun, 12 saylı ekologiya və təbii sərvətlər şöbəsinin seyrçi mövqeyi, fəaliyyətsizliyi təəssüf doğurur. Şöbənin rəisi Mübariz Hacıyevə ünvanlanan çoxsaylı suallarımız isə nədənsə cavabsız qalır.

Ulu öndərin tövsiyələrini fəaliyyət proqramı kimi qəbul edən Heydər Əliyev Fondunun təşəbbüsü ilə hər il Bakı ətrafında, bölgələrdə ağacəkmə kampaniyaları keçirilir. Əhalinin mütəşəkkil iştirakı ilə yeni bağlar salınır. Yaşıllıqlar yaradılır. Elə bu yaxınlarda Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bərdənin Uğurbəyli kəndində 2 hektarlıq bağ salınmışdır. Bütün bunlar xalq tərəfindən bəyənilir və alqışlanır. Paradoksal mənzərədir, bir tərəfdə el-oba minbir həvəslə ağac əkib, bağ salır. Digər tərəfdə isə böyük vəsait və zəhmət hesabına salınmış yaşıllıqlar məhv edilir. Bu gün Bərdədəki real mənzərə hər kəsi narahat edir. Rayon ictimaiyyəti baş verənlərdən ciddi şəkildə narahatdır. Axı, əkilib-becərilən, göz oxşayan ağaclar hansı zərurətdən kəsilir? Qoy bu suallarla əlaqədar qurumlar cavab versinlər.

Yazıya xalqımızın ümummilli lideri Heydər Əliyevdən gətirdiyimiz sitatla başladıq. Sonda isə Heydər Əliyev siyasi kursuna hər zaman sədaqətli olan və onu müvəffəqiyyətlə davam etdirən respublika Prezidenti İlham Əliyevin yaşıllıqların qorunması ilə bağlı mövqeyini xatırlatmağı məqsədəuyğun hesab edirik: "Ancaq ictimaiyyəti də, məni də narahat edən məsələ ağacların kəsilməsi məsələsidir. Buna yol vermək olmaz. Hesab edirəm ki, biz burada daha da ciddi məsuliyyət tətbiq etməliyik. Ağackəsmə tam şəkildə dayandırılmalıdır. Ancaq nadir hallarda, o da Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəyi ilə haradasa ağac ya köçürülə, ya da kəsilə bilər. Ona görə mən dəfələrlə bu məsələlərlə bağlı öz fikrimi bildirmişəm. Deyə bilərəm ki, vəziyyət əvvəlki illərə nisbətən daha da müsbətdir. Ancaq biz istədiyimizə tam şəkildə nail ola bilməmişik. Neçə vaxtı gəlirlər, qanunsuz olaraq ağacları kəsirlər, yerləri düzəldirlər ki, ev tiksinlər. Bu, vicdansızlıqdır, bu biabırçılıqdır, bu cinayətdir."

***Lazım QULİYEV,***
***"Azərbaycan"***







Yerində tikilənlər isə bunlardır

# Xidmət müqaviləsi ilə işləyənlərin ipoteka kreditlərinə müraciət qaydaları asanlaşıb

Bu, Nazirlər Kabinetinin "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına verilən ipoteka krediti, o cümlədən güzəştli ipoteka krediti üzrə borcalanların aylıq məcmu gəlirinin hesablanması Qaydası"nda etdiyi dəyişikliklərlə reallaşıb.

İqtisadi və Sosial İnkişaf Mərkəzinin sədri, iqtisadçı ekspert Vüqar Bayramov bildirib ki, əvvəllər müraciət üçün ən azı 12 ay iş fəaliyyəti tələb edilirdisə, indi bu rəqəm 6 ayadək azaldılıb: "Eyni zamanda, orta aylıq gəlir hesablanan zaman 12 ay deyil, faktiki ayların sayı nəzərə alınacaq". V.Bayramov həmçinin əlavə edib ki, ipoteka krediti üçün müraciət edən vətəndaşımzın yalnız son 8 ayda iş fəaliyyəti varsa, onun gəlirləri cəmlənərək 8-ə bölünəcək. Əvvəllər 12 aydan az fəaliyyəti olanlar ipoteka kreditlərinə müraciət etmək hüququna malik deyildilər.

Ekspert deyib ki, dəyişikliyə əsasən, sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlər hesablananda əvvəlki qaydalara görə kredit üçün müraciət edən şəxsin ən azı 2 il belə fəaliyyət ilə məşğul olması tələb olunurdusa, indi son 1 il sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq kifayət edəcək: "Bundan başqa, xidmət sahələrində sadələşdirilmiş vergi ödəyiciləri üzrə nəzərə alınan aylıq məcmu gəlirin məbləği orta aylıq dövriyyənin 40 faizindən yox, 70 faizindən çox olmayacaq. Yəni, ipotekaya müraciət edən sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxsin gəlirinin 70 faizi həcminədək aylıq kredit ödəniş məbləği müəyyənləşdirilə biləcək".

# B i l d i r i ş

*Bakı Turizm İnformasiya Mərkəzi açıq tender müddətinin uzadılması haqqında*

Bakı Turizm İnformasiya Mərkəzi "Azərbaycan" qəzetinin 04 aprel 2018-ci il tarixli 74 (7801) nömrəli və 17 aprel 2018-ci il tarixli 85 (7812) nömrəli sayında dərc olunmuş LOT-1 və LOT-2 Bakı Turizm İnformasiya Mərkəzi reklam çap məhsullarının və CD disklərin hazırlanması və satın alınması üzrə tender təkliflərinin və bank təminatı sənədlərinin təqdim olunması 17 iyul 2018-ci il saat 18.00-a qədər, zərflərin açılması 18 iyul 2018-ci il saat 17.00-a qədər uzadılır.

**Ünvan: Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 70**
**Telefon: 498 - 12 - 44**

***Tender komissiyası***

## Beynəlxalq aləm
HADİSƏLƏR, FAKTLAR

## KXDR Trampla sammitdən imtina edə bilər

ABŞ Pxenyandan nüvə cəbbəxanasından tamamilə imtina etməyi təkid etsə, KXDR-in rəhbəri Kim Çen İnlə ABŞ Prezidenti Donald Tramp arasında planlaşdırılmış sammit baş tutmaya bilər. Bu barədə Şimali Koreya Mərkəzi Teleqraf Agentliyinə məlumat verən KXDR xarici işlər nazirinin müavini Kim Qe Qvan demişdir: "ABŞ administrasiyası bizi küncə sıxıb birtərəfli qaydada nüvə silahından imtina etməyi tələb etsə, gələcək danışıqlarda maraqlı olmayacağıq".

Bundan əvvəl sammitin ləğv oluna biləcəyi barədə Cənubi Koreyanın "Renhap" agentliyi xəbər vermişdi. Xəbərdə deyilirdi ki, buna səbəb Pxenyanın hazırda keçirilən ABŞ-Cənubi Koreya birgə hərbi təlimlərindən narazı qalmasıdır. Pxenyanın təxribat adlandırdığı həmin təlimlərə etiraz əlaməti olaraq KXDR Cənubi Koreyanın yüksək vəzifəli nümayəndələri ilə mayın 16-na təyin olunmuş görüşü ləğv etmişdir. Öz növbəsində, Ağ evin mətbuat katibi Sara Sanders bildirmişdir ki, ABŞ Şimali Koreyanın bəyanatlarını diqqətlə öyrənəcək və atacağı addımları müttəfiqləri ilə sıx əlaqələndirəcək.

Xatırladaq ki, Kim Çen İn və Donald Trampın iştirakı ilə sammitin gələn ayın 12-də Sinqapurda keçirilməsi planlaşdırılmışdır.

## Əfqanıstanın Fərəh şəhəri taliblərdən təmizləndi

Əfqanıstanın qərbində yerləşən Fərəh şəhəri "Taliban" hərəkatının silahlılarından tamamilə təmizlənmişdir. Bu barədə ölkənin Müdafiə Nazirliyinin məlumatına istinadən "İnterfaks" agentliyi xəbər verir. Ekstremistlərin silahlı qrupları srağagün gecə bir neçə istiqamətdən şəhərə hücum etmişdi. Yerli KİV güc strukturlarının onlarca əməkdaşının həlak olduğunu və yaralandığını xəbər vermişdi.

Müdafiə Nazirliyinin məlumatında deyilir ki, hökumət qoşunlarının hərbi hava qüvvələrinin dəstəyi ilə keçirdiyi əks-hücum nəticəsində itirilmiş ərazilərə nəzarət bərpa olunmuş, düşmən şəhərdən çıxarılmışdır. Antiterror əməliyyatı zamanı 198 ekstremist öldürülmüş, yüzlərlə talib yaralanmışdır. Şəhər kənarının və ətraf qəzaların silahlılardan təmizlənməsi əməliyyatı davam edir.

Fərəh əyalətinin qubernatoru Bəsir Salanginin dediyinə görə, şəhərə iki mindən çox talib hücum etmişdi. 300-dən çox silahlı öldürülmüşdür. Onların cəsədləri hələ də şəhərin küçələrində qalır. Yüzlərlə talib yaralanmışdır.

## Havay adası fəlakət astanasındadır

Martın 3-də Kilauea vulkanının püskürdüyü Havay adasında ən yüksək - qırmızı təhlükə dərəcəsi elan olunmuşdur. Bu barədə TASS agentliyi xəbər verir.

ABŞ Geoloji Xidməti xəbərdarlıq edir ki, vulkanın aktivliyi hər an arta bilər. Bu, yenidən havaya kül və lava atılması, kraterin yaxınlığında partlayışların baş verməsi və vulkanik çatların əmələ gəlməsi ilə təhlükəlidir. Adada artıq 19 vulkanik çat qeydə alınmışdır. Okean istiqamətində saatda 20 kilometr sürətlə lava axır. Mayın 12-də kraterin yaxınlığında üç yeni dərin çat açılmışdır. Donmuş lava dördmərtəbəli ev hündürlüyündədir. Püskürmə zəhərli qazların çıxması ilə müşayiət olunur.

Vulkanın yaxınlığındakı Puna rayonu təbii fəlakət zonası elan olunmuşdur. ABŞ Prezidenti Donald Tramp Havay adasına yardım ayıracaq. Fəlakət zonasından iki min nəfər təxliyə edilmişdir. Püskürmə nəticəsində 27 ev dağılmışdır.

## Vaşinqton İran Mərkəzi Bankının başçısına qarşı sanksiyalar tətbiq etdi

ABŞ Maliyyə Nazirliyi İran Mərkəzi Bankının başçısı Vəliyulla Seyfə qarşı sanksiyalar tətbiq etmişdir. Bu barədə nazirliyin saytı məlumat vermişdir.

Bundan əlavə, məhdudlaşdırıcı tədbirlər Mərkəzi Bankın beynəlxalq departamenti rəisinin köməkçisi Əli Tərzaliyə qarşı tətbiq olunmuşdur.

"Bloomberg"in xəbərinə görə, ABŞ-ın maliyyə naziri Stiven Mnuçin bildirmişdir ki, Seyf İslam İnqilab Qvardiyasının tapşırığı ilə Livanın "Hizbullah" hərəkatına yardım üçün milyonlarla dolların köçürülməsində iştirak etmişdir.

Siyahıya həmçinin İraq və Livan vətəndaşlarının adları salınmışdır. Bundan əlavə, "əl-Bilad" islam bankına qarşı da sanksiyalar tətbiq edilmişdir.

Cari ayın əvvəllərində ABŞ Prezidenti Tramp bildirmişdi ki, Vaşinqton nüvə sazişindən çıxır və İrana qarşı tətbiq olunan sanksiyaların qüvvəsini bərpa edəcək. Maliyyə Nazirliyi bəyan etmişdir ki, Tehrana qarşı məhdudiyyətlər yarım il ərzində tətbiq oluna bilər.

# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ BAKI DÖVLƏT UNİVERSİTETİ

*2018/2019-cu tədris ilində aşağıdakı ixtisaslar üzrə əlavə təhsil almaq üçün tələbə qəbulu*

**E L A N E D İ R**

1. Ekologiya
2. Kompüter elmləri
3. Coğrafiya
4. Tarix
5. Beynəlxalq münasibətlər
6. Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
   Filologiya (Rus dili və ədəbiyyatı)
7. İqtisadiyyat
8. Psixologiya
9. Hüquqşünaslıq
10. Yerquruluşu, torpaq və şəhər kadastrı

Əlavə təhsil ödənişli formada müəssisə, təşkilat, idarə və ayrı-ayrı vətəndaşlarla Bakı Dövlət Universiteti arasında bağlanmış fərdi müqavilələr əsasında həyata keçirilir. Əlavə təhsil müvafiq ixtisas üzrə bakalavr (və ona bərabər tutulan) səviyyəsi üçün mövcud olan baza təhsil proqramlarındakı ümumi və ixtisas fənləri bölümlərini əhatə etməklə, tələbənin əvvəlcə aldığı baza təhsil proqramı ilə yeni ixtisasın baza təhsili proqramı arasındakı fərq nəzərə alınmaqla, xüsusi hazırlanmış təhsil proqramları əsasında aparılır.

Əlavə təhsil almaq istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

**Rektorun adına ərizə;**
**Ali təhsil haqqında sənədin (diplomun və ona əlavənin) notarial qaydada təsdiq olunmuş surəti;**
**3x4 sm ölçüdə 6 ədəd fotoşəkil;**
**Sağlamlıq haqqında arayış;**
**Şəxsiyyət vəsiqəsinin surəti;**
**Təhsil haqqını ödəmək haqqında öhdəlik müqaviləsi.**

Xarici ali təhsil müəssisələrinin məzunları aldıqları ixtisasların Azərbaycan Respublikası ərazisində tanınması və ekvivalentliyi barədə Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamə təqdim etməlidirlər.

**QEYD:** Sənədlər may ayının 18-dən iyul ayının 6-dək (istirahət günlərindən başqa) saat 10.00-dan 17.00-dək əsas binada (247 saylı otaqda) qəbul edilir.

Əlavə təhsil almaq üçün universitetə sənəd vermiş şəxslərlə müsahibə aparılır. Müsahibədən uğurla keçənlər, müqavilə yolu ilə əlavə təhsil ixtisası üzrə tələbələr sırasına qəbul edilirlər.

Təhsil Azərbaycan və rus dillərindədir. Təhsil haqqı müqavilə əsasında ayrı-ayrı ixtisaslara uyğun olaraq ödənilir. Təhsil əyani və qiyabi formalarda təşkil olunur.

**Ünvan: Akademik Zahid Xəlilov küçəsi-23 AZ-1148**
**Telefon: (012) 539-06-86**

**REKTORLUQ**

# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ BAKI DÖVLƏT UNİVERSİTETİ

*2018/2019-cu tədris ilində aşağıdakı ixtisaslar üzrə ödənişli əsaslarla əyani formada yenidən hazırlanma təhsili almaq üçün qəbul*

**E L A N E D İ R**

1. Coğrafiya müəllimliyi
2. Turizm və hotelçilik
3. Kimya müəllimliyi
4. Biologiya müəllimliyi
5. Fizika müəllimliyi
6. Riyaziyyat müəllimliyi
7. İqtisadiyyat
8. İnformatika müəllimliyi
9. Tarix müəllimliyi
10. Beynəlxalq münasibətlər
11. Azərbaycan dili və ədəbiyyat müəllimliyi
12. Rus dili və ədəbiyyatı müəllimliyi
13. Psixologiya
14. Sosial iş

Yenidən hazırlanma təhsili müəssisə, təşkilat, idarə və ayrı-ayrı vətəndaşlarla Bakı Dövlət Universiteti arasında bağlanmış fərdi müqavilələr əsasında həyata keçirilir. Dövlət və özəl ali təhsil müəssisələrinin məzunları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"na uyğun olaraq ilkin baza təhsili proqramları ilə yenidən əldə ediləcək ixtisasın baza təhsili proqramı arasındakı fərqin bir tədris ilinə hesablanmış saatdan çox olmaması şərtilə müsabiqədə iştirak edə bilərlər.

Yenidən hazırlanma təhsili almaq istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

**Rektorun adına ərizə;**
**Ali təhsil haqqında sənədin (diplomun və ona əlavənin) notarial qaydada təsdiq olunmuş surəti;**
**3x4 sm ölçüdə 6 ədəd fotoşəkil;**
**Sağlamlıq haqqında arayış;**
**Şəxsiyyət vəsiqəsinin surəti;**
**Təhsil haqqını ödəmək haqqında öhdəlik müqaviləsi.**

Sənədlər 2018-ci il may ayının 18-dən (istirahət günlərindən başqa) iyul ayının 4-dək saat 10:00-17:00-dək BDU-nun əsas binasında (otaq 247) qəbul edilir.

Yenidən hazırlanma təhsili almaq üçün universitetə sənəd vermiş şəxslərlə müsahibə aparılır. Müsahibədən uğurla keçənlər yenidən hazırlanma təhsilinə qəbul edilirlər.

**Ünvan: Akademik Zahid Xəlilov küçəsi-23**
**Telefon:(012)539-06-86**

**REKTORLUQ**

# B i l d i r i ş

**"Azərişıq"ASC** tərəfindən 07.04.2018-ci il tarixdə **MP-106 markalı Smart-kart tipli birfazalı sayğacların (kartı ilə birlikdə) satın alınması** məqsədilə elan edilmiş Açıq Tenderin LOT-1 MP-106 markalı Smart-kart tipli birfazalı sayğacların (kartı ilə birlikdə) satın alınması üzrə iddiaçıların sayı yetərincə olmadığı üçün tender sənədlərinin qəbulu 5 iyun 2018-ci il saat 15:00 tarixinə, tender təkliflərinin qəbulu 12 iyun 2018-ci il saat 15:00 tarixinə, zərflərin açılışı 13 iyun 2018-ci il saat 16:00 tarixinə qədər uzadılır.

***Tender komissiyası***

# B i l d i r i ş

"Azərbaycan" qəzetinin 28 fevral, 14 mart, 05 aprel, 26 aprel, 05 may 2018-ci il tarixli saylarında **"Azərsu" ASC-nin daxili vəsaiti hesabına polad boru, polad məmulatlar, siyirtmə və demontaj parçalarının satın alınması məqsədi ilə dərc edilmiş tender elanlarında** tender təkliflərinin və təklif təminatlarının qəbulu 30 may 2018-ci il saat 16.00-a, təkliflərin açılışı isə 31 may 2018-ci il saat 16.00-a dəyişdirilmişdir.

**Əlaqələndirici şəxs:** satın almaların təşkili və idarə olunması departamentinin tenderlərin təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az +994124314767 (2249))

***Tender komissiyası***

# B i l d i r i ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 13 aprel 2018-ci il tarixdə keçirilmiş "Sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası" adlı təkrar müsabiqənin qalibi "Yeni Həyat" Humanitar və Sosial Dayaq İctimai Birliyi, "Sağlamlıq imkanları məhdud uşaqlar üçün (Sumqayıt, Balakən şəhər və rayonları üzrə) icma əsaslı sosial reabilitasiya mərkəzlərinin fəaliyyətinin təşkili" adlı təkrar müsabiqənin qalibi Sumqayıt şəhəri üzrə - "Əlil Sahibkarlar Təşkilatı" İctimai Birliyi elan edilmişdir.

***Müsabiqə komissiyası***

# B i l d i r i ş

"Azərbaycan" qəzetinin 16 mart və 06 aprel 2018-ci il tarixli saylarında **"Azərsu" ASC-nin daxili vəsaiti hesabına nəqliyyat vasitələri və ehtiyat hissələrinin satın alınması məqsədilə 6 lot üzrə dərc edilmiş tender elanlarında 3, 4 və 6-cı LOT-lar üzrə** iddiaçıların əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu 30 may 2018-ci il saat 16.00-a, təkliflərin açılışı isə 31 may 2018-ci il saat 16.00-a dəyişdirilmişdir.

**Əlaqələndirici şəxs:** satın almaların təşkili və idarə olunması departamentinin tenderlərin təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (hikmat.qasimov@azersu.az +994124314767 (2249))

***Tender komissiyası***

## Ermənistan silahlı qüvvələrinin bölmələri iriçaplı pulemyotlardan istifadə etməklə atəşkəs rejimini 92 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan istifadə etməklə sutka ərzində atəşkəs rejimini 92 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Qızılhacılı, Cəfərli, Bala Cəfərli kəndlərində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Qaralar kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altındakı Çiləbürt, Ağdam rayonunun Nəmirli, Şıxlar, Qaraqaşlı, Şirvanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

## Düzəliş

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 4 saylı ərazi maliyyə hesablaşma mərkəzinin "Azərbaycan" qəzetinin 6 may 2018-ci il tarixli sayında dərc olunmuş tender elanında* ***tender təklifi və bank təminatının təqdim olunma vaxtı 22.06.2018-ci il, iddiaçıların təkliflərinin açılma vaxtı isə 25.06.2018-ci il*** *kimi oxunmalıdır.*

## ALLAH RƏHMƏT ELƏSİN!

Ənvər Seyidov ailəsi ilə birlikdə ədliyyə general mayoru

**OQTAY MAQSUDOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Məhkəmə Hakimləri Assosiasiyaları İttifaqının üzvləri Azərbaycan Respublikası Ali Məhkəməsinin sabiq hakimi

**OQTAY MAQSUDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Apelyasiya Məhkəməsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin sabiq hakimi

**OQTAY MAQSUDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan


AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8770
Sifariş 1433